14 sentyabr 2022 №67 (1940) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Ali Baş Komandan Silahlı Qüvvələrin rəhbər heyəti ilə operativ müşavirə keçirib

### Yaranmış gərginliyin məsuliyyəti Ermənistan rəhbərliyinin üzərinə düşür



Sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ermənistan-Azərbaycan sərhədində Ermənistanın törətdiyi təxribatlarla bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rəhbər heyətinin iştirakı ilə operativ müşavirə keçirib.

Müşavirədə aidiyyəti üzrə məruzələr təqdim edilib, Ermənistan silahlı qüvvələrinin iki dövlətin sərhədində törətdiyi təxribatların qarşısının alındığı, bütün müvafiq vəzifə və tapşırıqların yerinə yetirildiyi bildirilib. Qeyd olunub ki, yaranmış gərginliyin məsuliyyəti tam şəkildə Ermənistanın siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan Respublikasının Silahlı Qüvvələri sərhəd boyunca operativ vəziyyətə nəzarət edir.

***

Prezident İlham Əliyev sentyabrın 13-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul edib.

Görüşdə sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin iki ölkənin sərhədinin Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar müzakirə olunub.

Dövlətimizin başçısı Azərbaycanın Ermənistanın bu təxribatlarına cavab tədbirləri həyata keçirdiyini və baş vermiş təxribatlara görə bütün məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd edib.

Qeyd edək ki, sentyabrın 13-də ABŞ dövlət katibi Antoni Blinken ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında telefon danışığı olub.

## Vətən sağ olsun!

Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.

Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, genişmiqyaslı təxribatın qarşısı alınarkən Azərbaycan Ordusundan 42, Dövlət Sərhəd Xidmətindən isə 8 hərbi qulluqçu olmaqla ümumilikdə Silahlı Qüvvələrin 50 hərbi qulluqçusu şəhid olub.

Prezident İlham Əliyev sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı nəticəsində həlak olan hərbçilərlə bağlı paylaşım edib.

Paylaşımda deyilir: "Sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatların qarşısını alan zaman şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə, yaxınlarına və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Allah şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimizin qanı yerdə qalmadı!".

*mövzunun davamı səh. 2-də*

## "Suğra və oğulları" Daşkənd festivalında




Xəbər verdiyimiz kimi, 14-18 sentyabr tarixində Özbəkistanın paytaxtı Daşkənddə keçiriləcək "İpək Yolunun dürdanəsi" beynəlxalq film festivalında ölkəmiz də təmsil olunacaq.

Daşkənddəki Heydər Əliyev adına AMM-dən verilən məlumata görə, festivalda kinorejissor İlqar Nəcəfin "Suğra və oğulları" filmi təqdim olunacaq. Bakı Media Mərkəzi, "Butafilm", "Arizona Productions" (Fransa) və "Salarfilm"in (Almaniya) birgə istehsalı olan filmdə İkinci Dünya müharibəsi dövründə Azərbaycanda, ucqar kənddə yaşayan insanların taleyindən bəhs olunur. Filmin çəkilişləri 2019-cu ildə aparılıb.

Qeyd edək ki, Özbəkistanın paytaxtında hələ sovet dövründə keçirilən beynəlxalq festival uzun fasilədən sonra, 2021-ci ildə "İpək Yolunun dürdanəsi" adı altında bərpa olunub. Builki kinofestivalda 40-dək ölkənin iştirakı nəzərdə tutulub.

Sentyabrın 15-də festival çərçivəsində Heydər Əliyev adına AMM-də "Azərbaycan kinosu günləri" açılacaq. 17 sentyabrda "Suğra və oğulları" filmi Buxara şəhərində də nümayiş etdiriləcək.

## "Məclisi-üns" azad Şuşada bərpa olundu

### 125 il sonra eyni məkanda...

Azərbaycan mədəniyyətinin paytaxtı Şuşada tarixən sözlə sənət həmişə qoşa addımlayıb. XIX əsrdə şəhərin musiqi yığıncaqları ilə yanaşı poeziya məclisləri də ədəbi-mədəni mühitin inkişafında mühüm rol oynayıb. Bu ədəbi məclislərdən ən məşhuru 1864-cü ildə fəaliyyətə başlayan "Məclisi-üns" ("Dostluq məclisi") olub.



Şuşalı şairlər Mirzə Rəhim Fəna və Hacı Abbas Agahın təşəbbüsü ilə dövrün görkəmli ziyalısı Mirzə Əli Qazinin mədrəsəsində təşkil olunan söz sənəti məclisi bir müddət sonra Hacı Abbas Agahın evində keçirilib. 1872-ci ildən isə görkəmli şairə, sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın himayəsi və rəhbərliyi ilə onun evində davam edən "Məclisi-üns"ün fəaliyyəti daha da genişlənib.

Mirzə Ələsgər Növrəs, Mirzə Həsən Yüzbaşov, İsgəndər bəy Rüstəmbəyov, Mirzə Sadiq Piran, Baxış bəy Səbur, İsmayıl bəy Daruğə, Məşədi Nəsir Lövhi – ümumilikdə otuzdan çox tanınmış şuşalı şair məclisin daimi üzvləri idilər.

"Məclisi-üns"ə Natəvanın rəhbərlik etməsi onun şöhrətinin artmasına təsir göstərib. Məclisin fəaliyyəti müntəzəm şəkil aldıqca və üzvlərinin sayı artdıqca onun sədası Qarabağın hüdudlarını aşır. Şamaxıdan S.Ə.Şirvani, M.Bixud, A.Zühuri, Şəkidən İ.Nakam, Bakıdan A.Müniri, Naxçıvandan M.T.Sidqi, Lənkərandan M.İ.Qasir Şuşaya – "Məclisi-üns"ün adına məktub yazaraq bu yeni ədəbi məclisi təqdir edirlər.

"Məclisi-üns"ün fəaliyyəti 1897-ci ilədək – Xan qızı Natəvanın vəfatına qədər davam edib. Əlamətdar faktdır ki, qala-şəhərimiz Şuşanın 270 yaşını silsilə tədbirlərlə qeyd etdiyimiz 2022-ci ildə Xurşidbanu Natəvanın da anadan olmasının 190 illiyidir. Yubiley dövlət başçısının müvafiq sərəncamı ilə qeyd olunur. Yubiley ilində görkəmli şairənin adının "Məclisi-üns"lə qoşa çəkilməsi də təbiidir. Natəvanın vəfatından 125 il sonra "Məclisi-üns" də azad Şuşada bərpa olundu.

*davamı səh. 3-də*

## Latviyada Nizami irsinə dair simpozium və Natəvana həsr edilmiş seminar

Sentyabrın 12-də Latviya Milli Kitabxanasında "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi irsi və onun ümumbəşəri dəyərlərin təşviq edilməsinə təsiri" mövzusunda beynəxalq simpozium keçirilib.

Azərbaycanın Riqadakı səfirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə gerçəkləşən tədbirdə bu ölkədəki diplomatik korpusun, mədəniyyət, incəsənət və akademik dairələrin nümayəndələri, tələbələr iştirak ediblər.

Ölkəmizin Latviyadakı səfiri Elnur Sultanov iştirakçıları salamlayaraq simpoziumun önəmini qeyd edib, tədbirin Latviya-Azərbaycan mədəni və humanitar əlaqələrinə töhfə olduğunu deyib.

Səfir diqqətə çatdırıb ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dahi şairin ölməz irsini dünyada təşviq edən mühüm beynəlxalq platformadır. Mərkəzin fəaliyyətində Latviyanın sabiq prezidentləri Vayra Vike-Freyberqa, Valdis Zatlers və Raymonds Veyonisin fəal iştirak etdikləri vurğulanıb.




Latviya Milli Kitabxanasının icraçı direktoru Dzintra Mukane ölkəmizin səfirliyi ilə əməkdaşlıqdan danışıb, ötən il səfirlik tərəfindən kitabxanaya hədiyyə edilən kitablara görə təşəkkürünü bildirib. D.Mukane Latviya Milli Kitabxanasının Nizami Gəncəvi irsinə marağını ifadə edib və onun əsərlərinin latış dilinə tərcümə olunmasını arzuladığını vurğulayıb.

Azərbaycan Milli Kitabxanasının Kitabxana-informasiya xidməti və beynəlxalq əlaqələr üzrə direktor müavini Ədibə İsmayılova simpoziumda "Nizami Gəncəvi irsi dünya kitabxanalarında" mövzusunda təqdimatla çıxış edib. O, dahi şairin dünya kitabxanalarında saxlanılan əlyazmaları haqqında ətraflı məlumat verib, Milli Kitabxana tərəfindən Nizami Gəncəvi irsinin qorunması və təbliği istiqamətində görülən işlərdən bəhs edib, həmçinin böyük mütəfəkkirin əsərlərinin əlyazmalarından danışıb.

*davamı səh. 2-də*

## Bölgə səhnələrinə nəzər

Ölkə teatrları növbəti mövsüm həyəcanını yaşayır. Tamaşaçılarla görüşə hazır köhnə-yeni səhnə işləri ilə yanaşı, təzə ideyalarla da gələnlər az deyil. Bu aktivlik paytaxtdan kənardakı teatrlarda da müşahidə olunur.

Başlayaq Bakıya ən yaxın Sumqayıt Dövlət Dram Teatrından. Sənət ocağında ötən həftə yeni mövsümün başlanması ilə bağlı iclas keçirilib. Teatrın direktoru vəzifəsini icra edən Əməkdar artist Vidadi Məmmədov yeni mövsümün həm də sənət ocağı üçün yubiley (55-ci mövsüm) olduğunu xatırladaraq bu mənada repertuar siyasətinin daha da zəngin nəzərdə tutulduğunu bildirib. Qeyd olunub ki, repertuarda yeni tariximizin şanlı səhifəsi olan 44 günlük Vətən müharibəsinə, vətənpərvərlik mövzusuna da xüsusi yer ayrılacaq.

Teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov yeni mövsümdə hazırlanması nəzərdə tutulan tamaşalar barədə danışıb. Bildirib ki, teatrın uşaq tamaşalarına da böyük marağı var. Ötən illərdə "Qaraca qız", "Tıq-tıq xanım", "Göyçək Fatma", "Danışan gəlincik" kimi tamaşalar hazırlanıb. Tezliklə bu sıraya A.Lindqrenin "Balaca və Karlsonun macəraları" (rejissor Vasif Məmmədov) əlavə olunacaq. Bundan əlavə, ötən mövsümdən məşqləri başlanılan Ü.Hacıbəylinin "O olmasın, bu olsun" (quruluşçu rejissor Əməkdar artist Namis Şirməmmədov) və Ə.Haqverdiyevin "Kimdir müqəssir?" (quruluşçu rejissor Fuad Kazımov) yaxın vaxtlarda təhvil veriləcək.

*davamı səh. 4-də*

## V ANİMAFİLM festivalı sona çatıb

Xəbər verdiyimiz kimi, sentyabrın 7-dən 11-dək Bakıda V ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçirilib. Mədəniyyət Nazirliyi, Azərbaycan Kinematoqrafçılar İttifaqı, Qarabağ Dirçəliş Fondu, Azərbaycan Yaradıcı Sənayelər Federasiyası, "Culture Network House" Assosiasiyası, Nizami Kino Mərkəzi, "Annecy" Beynəlxalq Animasiya Film Festivalı və digər qurumların tərəfdaşlığı ilə gerçəkləşən builki festivalın devizi "Bir bilet – bir ağac" idi.

Sentyabrın 11-də Nizami Kino Mərkəzində festivalın bağlanışı və qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Münsiflər heyətinin üzvü Esra Əliyeva qeyd edib ki, festivalın bilet satışlarından 4119 manat pul yığılıb. Bu vəsaitlə işğaldan azad edilən ərazilərdə 412 ağac əkiləcək.

Festivalın "Ən yaxşı qısametrajlı animasiya filmi" – Qran pri mükafatı qalibinin adını Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov açıqlayıb. Mükafata fransalı rejissor Amandine Meyerin "İki truba üçün hekayə" ("A Story for 2 Trumpets") filmi layiq görülüb. Bu nominasiyada xüsusi seçim mükafatını isə ABŞ-dan rejissor Owen Klattenin "Ağacdan" ("Of Wood") filmi qazanıb.

*davamı səh. 5-də*

## Moskvadakı "Azərbaycan" pavilyonunda "iki sevgi şəhəri"

Rusiya paytaxtındakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki (XTNS) "Azərbaycan" daimi pavilyonunda "Moskva-Bakı: iki sevgi şəhəri" adlı festival keçirilib.

Sentyabrın 10-11-də Moskva şəhərinin 875 illiyinə həsr olunmuş tədbir "MBA-Moskva" bankı, "Sergey Andriyakanın Akvarel və Zərif Sənətlər Akademiyası", "Restomarket by Vasilchuk Brothers" ilə birgə təşkil edilib.

Moskvalılara və şəhərin qonaqlarına xoreoqraf Rəna İbrahimovanın rəhbərlik etdiyi "Alagöz" və Fatma Nəzərlinin "Xarıbülbül" ansambllarının ifasında Azərbaycan rəqsləri, müğənni Emil Qədirovun ifasında mahnılar, açıq səma altında Azərbaycanın şah plovunun hazırlanması və ənənəvi süfrəyə verilməsi şousu təqdim olunub, milli şirniyyatların bəzədilməsi, eləcə də qutab bişirilməsi üzrə ustad dərsləri keçirilib.

Uşaqlar isə valideynləri ilə birgə "Sergey Andriyakanın Akvarel və Zərif Sənətlər Akademiyası"nın ustad dərslərində iştirak ediblər: nar şəklində keramika məmulatlarına naxış vurub, Moskva və Bakıya həsr olunan viktorinada, dulusçuluq sənətində bilik və bacarıqlarını sınayıblar.

*davamı səh. 8-də*



Bölgələrdə "Şuşa İli" tədbirləri davam edir




*səh. 4*

Bədii təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsahibə mərhələsi başa çatıb

*səh. 3*




TÜRKSOY Opera Günləri Fikrət Əmirovun 100 illiyinə həsr edilib

*səh. 8*

№67 (1940)
14 sentyabr 2022
www.medeniyyet.az

## Mədəniyyət naziri ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 13-də ölkəmizdə səfərdə olan ABŞ-ın Etnik Anlaşma Fondunun təsisçisi və prezidenti ravvin Mark Şnayerlə görüşüb.



Görüşdə Mədəniyyət Nazirliyi tərəfindən ötən il irəli sürülən "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası müzakirə olunub.

Sözügedən qlobal çağırışın bu ilin may ayında BMT-nin Sivilizasiyalar Alyansında keçirilən təqdimat mərasimi haqqında danışan nazir deyib ki, Mark Şnayev bu layihənin əsas tərəfdaş və spikerlərindən olub. Anar Kərimov bu beynəlxalq çağırışa göstərdiyi dəstəyə görə qonağa təşəkkürünü bildirib.

Mark Şnayev mədəniyyətlərarası və dinlərarası dialoqda əməkdaşlıq baxımından Azərbaycanı lider ölkələrdən hesab etdiyini vurğulayıb. O, "Mədəniyyət naminə sülh" qlobal kampaniyasına bundan sonra da dəstək göstərəcəyini diqqətə çatdırıb.

## İstiqlal Muzeyində Əhməd Cavad haqqında kitabın təqdimatı




Sentyabrın 13-də Milli Məclisin Mədəniyyət komitəsi və Azərbaycan İstiqlal Muzeyinin təşkilatçılığı ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istiqlal şairi Əhməd Cavadın (1892-1937) anadan olmasının 130, vəfatının 85-ci ildönümü münasibətilə tədbir və "Türk ruhunun bayrağı Əhməd Cavad" kitabının təqdimatı keçirilib. Kitabın müəllifləri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva və AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, dosent Faiq Ələkbərlidir.

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib və Dövlət Himni səsləndirilib.

Tədbirin aparıcısı, Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı Türkiyə türkcəsində nəşr olunan kitab haqqında məlumat verib.

İstiqlal Muzeyinin direktoru Sədi Miresyibli diqqətə çatdırıb ki, Əhməd Cavad ömrünü, canını, bütün varlığını türkçülük və turançılıq ideyalarına həsr edib. Türkiyə və Azərbaycanın müstəqilliyi yolunda yorulmaz fəaliyyət göstərən istiqlal şairimizin əziz xatirəsi on milyonlarla insanın qəlbində yaşayır.

Millət vəkili Qənirə Paşayeva çıxışında vurğulayıb ki, bu gün Əhməd Cavad Türk dünyasını sevən könüllərdə yaşayır, şeirləri dillər əzbəridir: "Əhməd Cavad hər cür məhdudiyyətə, basqıya baxmayaraq öz fiziki ömrü boyu türklük fikrindən, vətəncanlı ziyalı mövqeyindən geri durmadı. Baxmayaraq ki, bu gün Əhməd Cavadın məzarı yoxdur, amma adı milyonların ürəyində uca yerdədir.

Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli, "Türk ədəbiyyatı" dərgisinin baş redaktoru, kitabı Türkiyə türkcəsinə çevirən İmdat Avşar, kitabın həmmüəllifi Faiq Ələkbərli, Şimali Kipr Türk Cümhuriyyətinin ölkəmizdəki təmsilçiliyinin təhsil və mədəniyyət müşaviri Tevfik Ulual və başqaları təqdim olunan kitabın əhəmiyyəti barədə fikirlərini bölüşüblər.

Sonra Əhməd Cavad nəslinin nümayəndəsi Cavad Axundzadə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Əməkdar artist Ağalar Bayramov Əhməd Cavadın şeirini söyləyib, Əməkdar artist Nuriyyə Hüseynova şairin şeirlərinə yazılmış mahnılar oxuyub.

# Ermənistanın təxribatlarına bundan sonra da qətiyyətlə cavab veriləcək

Sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib.

Müdafiə Nazirliyinin məlumatına əsasən, Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarını istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Ermənistan silahlı qüvvələri bununla yanaşı, Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki mövqeləri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutub. Nəticədə silahlı qüvvələrimizin şəxsi heyəti arasında itkilər var, hərbi infrastruktura ziyan dəyib.

Məlumatda vurğulanır ki, Ermənistan silahlı qüvvələrinin təxribatının və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısı alınıb və Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinin susdurulması istiqamətində Azərbaycan Ordusunun bu istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görülüb.

Qeyd edək ki, sərhəddə hərbi toqquşma səhər saatlarınadək davam edib və gündüz qismən səngiyib.

***

Sentyabrın 13-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər üçün brifinq verib.

Xarici ölkələrin hərbi nümayəndələrinə Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar barədə ətraflı məlumat verilib. Bildirilib ki, Ermənistan tərəfinin son zamanlar qeyd olunan istiqamətlərdə mövqelərimizi mütəmadi olaraq atəşə tutmasında başlıca məqsəd sülh sazişinin imzalanmasının, həmçinin azad edilmiş ərazilərdə aparılan irimiqyaslı bərpa-quruculuq işlərinin yubadılmasıdır.

Beynəlxalq nümayəndələrin diqqətinə çatdırılıb ki, Azərbaycan 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanata sadiqdir, sərhədlərin demarkasiya və delimitasiya işinin başlanması və hər iki ölkə arasında sülh müqaviləsinin imzalanması ilə bölgədə əmin-amanlığın bərqərar olunmasına maraqlıdır. Qarşı tərəf isə əksinə, ərazilərimizə, bölmələrimizin təminat yollarına minalar basdırmaqla bəyanata zidd davranışlar sərgiləyir.



Bu da Ermənistanın hərbi avantüra və revanşist mövqedə olduğuna əyani sübutdur.

"Ümumiyyətlə, son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində təxribatları, Azərbaycan Ordusunun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması halları intensiv və sistematik xarakter daşıyırdı. Eyni zamanda Ermənistan tərəfindən Azərbaycan sərhədləri boyunca hərbiləşməni artırması, bölgədə ağır texnika və iri çaplı silahlar yerləşdirməsi Ermənistanın genişmiqyaslı hərbi təxribata hazırlaşdığını göstərirdi" – bu sözlər Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda vurğulanır.

Bildirilir ki, Ermənistan tərəfinin Azərbaycana qarşı növbəti təcavüzü beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, habelə Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarının və Azərbaycanla Ermənistan arasında əldə edilmiş razılıqların kobud şəkildə pozulmasıdır, Ermənistanın bu addımları aparılan normallaşma və sülh prosesinə tamamilə ziddir. Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işləri aparan bir zamanda, Ermənistan təcavüzə yol verməklə bu prosesə hər vəchlə mane olduğunu növbəti dəfə göstərdi.

"Baş vermiş təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə qarşı hər bir addımların qarşısı qətiyyətlə alınacaq", – deyə Azərbaycan XİN-in bəyanatında deyilir.

Qeyd edək ki, sentyabrın 13-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyənin milli müdafiə naziri Hulusi Akar arasında, eləcə də xarici işlər naziri Ceyhun Bayramovun Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə telefon danışığı olub.

Məsələ ilə bağlı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında da telefon danışığı baş tutub. Ceyhun Bayramov Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədboyu ərazilərində genişmiqyaslı təxribatları, habelə ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə görülən tədbirlər barədə qarşı tərəfə məlumat verib.

Regiondakı son vəziyyət Azərbaycan XİN rəhbəri Ceyhun Bayramovun Rusiya xarici işlər naziri Sergey Lavrovla telefon danışığında da müzakirə edilib.

***




Sentyabrın 13-də həmçinin xarici işlər naziri Ceyhun Bayramovun Ermənistanın qeyri-qanuni hərbi fəaliyyətini davam etdirməsi, eyni zamanda Azərbaycanın ərazisinə yeni minaların basdırılması ilə bağlı BMT-yə ünvanlandığı məktub təşkilatın sənədi kimi yayılıb.

Qeyd edək ki, BMT Təhlükəsizlik Şurasına (TŞ) sədrlik edən Fransa Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsi ilə bağlı TŞ-nin iclasının keçiriləcəyini bildirib. İclasın sentyabrın 14-də olacağı barədə məlumat verilib.

Azərbaycan XİN rəhbərinin BMT-də yayılan məktubunda Ermənistan tərəfindən ölkəmizin azad edilmiş ərazilərinin minalar və digər partlamamış hərbi sursatlarla çirkləndirilməsinə diqqət çəkilib, bunun ciddi təhlükə törətdiyi qeyd olunub. Vurğulanıb ki, Azərbaycanın mühəndis istehkam bölmələri tərəfindən təkcə Laçın rayonunda avqustun 15-dən 22-dək 1 318 ədəd piyada əleyhinə mina aşkarlanıb və bu, təhdidin nə qədər genişmiqyaslı olduğunu göstərir.

Məktubda həmçinin qeyd olunub ki, Ermənistan 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli bəyanatın müvafiq müddəasının ziddinə olaraq Azərbaycan ərazilərindən qanunsuz hərbi birləşmələrini çıxarmayıb və hərbi fəaliyyətlərini dayandırmayıb. Əksinə, Ermənistan Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində yeni döyüş mövqeləri formalaşdırmağa davam edir, möhkəmləndirmə işləri aparır və yeni minalar basdırır.

***

Sentyabrın 13-də xarici işlər naziri Ceyhun Bayramovun və Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin iştirakı ilə ölkəmizdə Azərbaycanda akkreditə olmuş diplomatik korpusun nümayəndələri üçün brifinq keçirilib.

Xarici İşlər Nazirliyində keçirilən brifinq zamanı Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatları nəticəsində yaranmış gərginlik və hərbi təcavüzün qarşısının alınması məqsədilə görülmüş təxirəsalınmaz və adekvat tədbirlər barədə iştirakçılara müfəssəl məlumat verilib.

Azərbaycan tərəfindən cavab addımlarının məhdud xarakterli olduğu, legitim hərbi hədəflərə yönəldiyi və mülki əhalinin hədəf alınmadığı bildirilib.

BMT-nin Baş katibi Antonio Quterreş, ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xarici işlər naziri Zbiqnev Rau və ATƏT-in Baş katibi Mariya Helqa Şmid Ermənistan-Azərbaycan sərhədi boyunca baş vermiş silahlı qarşıdurmalarla əlaqədar tərəfləri təcili atəşkəsə çağırıblar.

Rusiya XİN də Azərbaycan ilə Ermənistan arasında gərginliyin artması ilə əlaqədar bəyanatla çıxış edib.

Bəyanatda deyilir: "Tərəfləri vəziyyəti daha da kəskinləşdirməkdən çəkinməyə, təmkinlilik nümayiş etdirməyə və Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli bəyanatlarına müvafiq olaraq atəşkəs rejiminə dönmədən riayət etməyə çağırırıq".

Rusiyanın xarici siyasət idarəsi münaqişə tərəflərini "mübahisəli problemləri yalnız siyasi-diplomatik yolla, sərhəd məsələlərinə aid hissədə isə, Rusiyanın məşvərətçi kimi köməyi ilə Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə ikitərəfli komissiyanın işi çərçivəsində" həll etməyə çağırıb.

Bu arada Rusiya Prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov Vladimir Putinin 15-16 sentyabrda Özbəkistanın Səmərqənd şəhərində keçiriləcək Şanxay Əməkdaşlıq Təşkilatının sammitində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşəcəyini bildirib.

# Latviyada Nizami irsinə dair simpozium və Natəvana həsr edilmiş seminar



*əvvəli səh. 1-də*

Ə.İsmayılova 2021-ci ildə elan olunan "Nizami Gəncəvi İli" ilə əlaqədar Azərbaycan Milli Kitabxanasının Mədəniyyət Nazirliyi ilə birgə reallaşdırdığı layihələrdən də bəhs edib, həmçinin Milli Kitabxananın Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirdiyi "Milli-mənəvi dəyərlərimizin Vətənə qaytarılması" layihəsi çərçivəsində dünya milli kitabxanalarında qorunan Azərbaycan ədəbiyyatı klassiklərinə məxsus əlyazmaların rəqəmsal nüsxələrinin ölkəyə gətirilməsindən söz açıb. Sonra o, "Nizami Gəncəvi irsi dünya kitabxanalarında" ("Nizami Ganjavi's heritage in world libraries") elektron məlumat bazasını tədbir iştirakçılarına nümayiş etdirib. Qeyd edib ki, elektron məlumat bazasında Nizami Gəncəvi "Xəmsə"sinin 155 nüsxəsi toplanıb. Bu əlyazmaların elektron nüsxələri "Nizami İli"ndə (2021) Türkiyə, ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, Polşa, Çexiya, Rusiya və Qazaxıstanın kitabxana və muzeylərindən Milli Kitabxanaya daxil olub.

Latviya Universitetinin professoru Kaspars Klavinş dünyada elm və fəlsəfi fikrin inkişafında Nizami Gəncəvinin parlaq roluna toxunub.

Siyasi elmlər üzrə fəlsəfə doktoru Nigar Sultanova Nizami poemalarının filoloji tərcüməsinin incəliklərindən, Latviya Universitetinin tədqiqatçıları Mədinə Mustafayeva və İnese Davidson isə dahi şairin yaradıcılığından, onun Şərq intibahındakı rolundan danışıblar.

Latviya Universitetinin tələbəsi Daniyels Pavloviçs Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından bir parçanı səsləndirib.

Azərbaycanın görkəmli dahi vokalçısı Bülbülün ifasında Ü.Hacıbəylinin Nizaminin sözlərinə yazdığı "Sevgili canan" romansının videoyazısı nümayiş etdirilib.

Sonda səfir E.Sultanov Latviya Universitetinin tələbələrinə Nizami Gəncəvi ilə bağlı kitablar, Ə.İsmayılova isə Milli Kitabxananın ehtiyat mübadilə fondundan Nizami Gəncəvi ilə bağlı kitablar və "Sözləri Nizaminindir" disk albomunu Latviya Milli Kitabxanasının fonduna hədiyyə ediblər.

Tədbir çərçivəsində Nizami Gəncəvi mövzusunda nəşr olunan kitablar, şairin əsərlərinə çəkilmiş miniatürlərdən ibarət sərgi də nümayiş etdirilib.

***

Sentyabrın 13-də Riqa şəhərindəki Latviya Universitetinin Akademik Kitabxanasında "Xurşidbanu Natəvan: ədəbiyyatın və incəsənətin təbliğində Azərbaycan qadınının rolu" adlı seminar keçirilib.

Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov tədbirdə giriş nitqi söyləyib.

Seminarda Azərbaycan Milli Kitabxanasının direktor müavini, tarix üzrə fəlsəfə doktoru Ədibə İsmayılova "Xurşidbanu Natəvan" mövzusunda ingilis dilində məruzə ilə çıxış edib. Bildirib ki, Xurşidbanu Natəvan XIX əsrdə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şuşa şəhərində ədəbi-bədii mühitin formalaşmasında və ədəbi məclislərin fəaliyyətində əhəmiyyətli rol oynayıb. Qeyd edib ki, Natəvan sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı, İbrahimxəlil xanın nəvəsidir. Diqqətə çatdırılıb ki, bu il şairənin 190 illik yubileyi tamam olur və bununla bağlı Azərbaycan Prezidenti müvafiq sərəncam imzalayıb. Azərbaycan Milli Kitabxanası tərəfindən "Xurşidbanu Natəvan" biblioqrafiyası hazırlanaraq nəşr olunub, şairə haqqında elektron məlumat bazası tərtib edilib.

Ə.İsmayılova ingilis dilində hazırlanmış "Xurşidbanu Natəvan" adlı elektron məlumat bazasını iştirakçılara nümayiş etdirib.

Seminarın davamında Xurşidbanu Natəvan nəslindən olan Nazlı Hacızadə, Latviya Universitetinin İnsan hüquqları fakültəsinin professoru Kaspars Klavins və digərləri Xurşidbanu Natəvanın həyat və yaradıcılığı barədə söz açıblar.

Sonda Ə.İsmayılova Milli Kitabxananın fondundan Natəvanla bağlı nəşrlər Latviya Universiteti Akademik Kitabxanasına hədiyyə edib.

# “Məclisi-üns” azad Şuşada bərpa olundu






əvvəli səh. 1-də

Sentyabrın 9-da Şuşa şəhərində Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin birgə təşkilatçılığı ilə XIX əsr Azərbaycan söz-sənət irsində məxsusi yeri olmuş “Məclisi-üns” ədəbi məclisinin bərpa edildiyini bildirən toplantı keçirilib.

“Şuşa İli” çərçivəsində və görkəmli şairə Xurşidbanu Natəvanın 190 illiyi münasibətilə gerçəkləşən toplantıda mədəniyyət naziri Anar Kərimov, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar, Azərbaycanın və digər türkdilli ölkələrin elm, ədəbiyyat xadimləri, digər qonaqlar iştirak ediblər.

Tədbir iştirakçıları öncə Xurşidbanu Natəvanın 190 illiyinə həsr edilən kitab sərgisinə baxıblar. Sərgidə Natəvanın əsərlərinin əlyazmaları, rəsmləri də nümayiş olunub.

Vaxtilə Şuşada Xurşidbanu Natəvanın himayəsində fəaliyyət göstərmiş, bölgənin tanınmış şairlərinin və musiqiçilərinin qatıldığı, dövrün ədəbi mühitinin formalaşmasında xüsusi rolu olan “Məclisi-üns”ün fəaliyyətinin bərpasından sonra ilk toplantısı Xan qızının evinin – otuzillik erməni işğalı dövründə vandalizmə məruz qalmış bu tarixi binanın qarşısında, açıq havada təşkil edilib.




AYB-nin katibi, Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi giriş sözü söyləyərək qonaqları salamlayıb.

Toplantıda çıxış edən mədəniyyət naziri Anar Kərimov işğaldan azad olunmuş ərazilərimizdə ölkə rəhbərliyinin tapşırığına uyğun olaraq, bütün sahələr üzrə genişmiqyaslı quruculuq işləri həyata keçirildiyini deyib. Bildirib ki, eyni zamanda mədəni infrastrukturun bərpası və tarixi yurd yerlərimizə mədəniyyətimizin qaytarılması istiqamətində layihələrin reallaşdırılması Mədəniyyət Nazirliyinin fəaliyyətində prioritet məsələlərdən biri kimi müəyyənləşdirilib.

“Məclisi-üns”ün bərpasının önəmini vurğulayan nazir qeyd edib ki, 1864-cü ildə Şuşada şeir-sənət xadimlərinin iştirakı ilə yaradılan bu ədəbi məclis 1872-ci ildən Azərbaycan poeziyasının görkəmli siması Xurşidbanu Natəvanın himayəsində fəaliyyətini daha da genişləndirib. Bölgənin tanınmış şairlərinin və musiqiçilərinin qatıldığı “Məclisi-üns” o dövrdə Qarabağda və ümumilikdə Azərbaycanda ədəbi mühitin formalaşması və ədəbi nəsillərin yetişməsində mühüm rol oynayıb. Məclisə qatılan gənc şairlər ədəbi müzakirələrdə iştirak edib və ustadlardan şeir sənətinin incəliklərini öyrəniblər.

Nazir diqqətə çatdırıb ki, torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağ ədəbi məclislərinin bu ənənəsini yaşatmaq və təbliğ etmək üçün “Məclisi-üns” Ədəbi Məclisi İctimai Birliyinin yaradılması qərara alınıb. Birliyin fəaliyyətinin əsas məqsədi Qarabağın ədəbi və mədəni irsini araşdırmaq, Azərbaycanda və onun hüdudlarından kənarda təbliğatını həyata keçirmək, müasir ədəbi proseslərin və yaradıcı şəxslərin inkişafını dəstəkləmək, Azərbaycanın mədəni irsinin mühafizəsinə, inkişafına və təşviqinə dair tədbirlər təşkil etməkdir. “İnanırıq ki, ölkə Prezidentinin müvafiq sərəncamlarının icrası ilə əlaqədar ədəbi-mədəni ənənələr üzərində yaradılan “Məclisi-üns” Ədəbi Məclisi İctimai Birliyi öz fəaliyyəti ilə Azərbaycan xalqının qədim və zəngin mədəniyyətinin azad Qarabağa qaytarılması və ədəbi nəsillərin yetişməsi işinə töhfə olacaq”, – deyə Anar Kərimov bildirib.

Daha sonra Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, AYB-nin sədri, Xalq yazıçısı Anar, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru, akademik Rafael Hüseynov, AMEA-nın Məhəmməd Füzuli adına Ədəbiyyat İnstitutunun baş direktoru İsa Həbibbəyli, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş elmi işçisi, professor Raqub Kərimov, şair, tərcüməçi, AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin rəhbəri Səlim Babullaoğlu çıxış edərək tədbir haqqında fikirlərini bölüşüblər.

Məclisdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın şairləri ud və qanun ifaçılarının müşayiəti ilə şeirlər söyləyiblər. “İgidlərin sözü” layihəsinin iştirakçıları – Vətən müharibəsi qazləri olan şairlər də poetik misralarını dilə gətiriblər.

# Mədəniyyət Nazirliyində türkiyəli qonaqla görüş

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 12-də Ankaradakı Əhməd Yəsəvi Dərnəyinin rəhbəri, tibb xadimi, pedaqoq, eyni zamanda böyük türk mütəfəkkiri Əhməd Yəsəvi irsinin tanınmış tədqiqatçısı Fatma Sönməzlə görüşüb.



Türk dünyasının tanınmış ziyalısı Fatma Sönməzi səmimi salamlayan nazir istər işğal dövründə, istərsə də tarixi Zəfərimizdən sonra Azərbaycanın əzəli torpaqları Qarabağın, Şuşanın beynəlxalq ictimaiyyətə tanıdılmasında gördüyü əvəzsiz işlər üçün ona dərin təşəkkürünü bildirib. Anar Kərimov qonağa Mədəniyyət Nazirliyinin təsis etdiyi “Şuşa – 270” döş nişanını təqdim edib.

Dəvət üçün mədəniyyət nazirinə minnətdarlığını bildirən Fatma Sönməz bundan sonrakı fəaliyyətində də Türk dünyası naminə yorulmadan çalışacağını qeyd edib.

Anar Kərimov qonağa fəaliyyətində uğurlar və cansağlığı arzulayıb.

# Bədii təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsahibə mərhələsi başa çatıb

Uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsi başa çatıb.

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Mədəniyyət Nazirliyi sistemindəki uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərində təhsilin keyfiyyətinin yüksəldilməsi, bilikli və bacarıqlı kadrların bərabərhüquqlu, şəffaf rəqabət şəraitində seçilib yerləşdirilməsi məqsədilə 2022-2023-cü tədris ilinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsi də başa çatıb.

Dövlət İmtahan Mərkəzi ilə birgə keçirilmiş test imtahanında (7 avqust) müvəffəqiyyət qazanaraq elan edilmiş vakant vəzifələrə qeydiyyatdan keçmiş 352 nəfərlə 5-9 sentyabr tarixində aparılmış müsahibələrin nəticələri yaxın günlərdə elan ediləcək.

Qeyd edək ki, test imtahanında iştirak etmiş 1709 nəfərdən 482 nəfər tələb olunan keçid balını toplayaraq müsahibələrdə iştirak hüququ qazanıb. Elan olunmuş vakant vəzifələrə 383 nəfər qeydiyyatdan keçsə də, onlardan 31 nəfər müsahibə mərhələsinə qatılmayıb.

# MDB-nin Mədəni əməkdaşlıq üzrə Şurasının iclası keçirilib

8-9 sentyabr tarixlərində Qazaxıstanın Nur-Sultan şəhərində MDB iştirakçı-dövlətlərinin Mədəni əməkdaşlıq üzrə Şurasının 37-ci iclası keçirilib. İclasda Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vüqar Məmmədovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.






Toplantıda 2021-2025-ci illər üzrə MDB iştirakçı dövlətlərinin əməkdaşlığı ilə əsas tədbirlər, 2022-ci ildə MDB-də “Xalq yaradıcılığı və mədəni irs ili” elan olunması ilə əlaqədar tədbirlər planının həyata keçirilməsi, 2022-ci ildə “Birliyin mədəniyyət paytaxtı” dövlətlərarası layihəsinin Qırğızıstanda icra edilməsi, MDB iştirakçı-dövlətlərinin muzey işi sahəsində əməkdaşlığı haqqında sazişin layihəsi, “Birliyin qiymətli boyunbağısı” beynəlxalq layihəsi, iştirakçı dövlətlərin kinematoqrafiya üzrə işçi qrupunun fəaliyyəti, Mədəni əməkdaşlıq üzrə Şuranın fəaliyyətinə dair hesabat, növbəti iclasın keçirilməsi, 2023-cü ildə nəzərdə tutulan fəaliyyət və digər məsələlər müzakirə olunub.

Vüqar Məmmədov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionlarında aparılan bərpa və yenidənqurma işləri, o cümlədən postmüharibə dövründə mədəniyyət sahəsində həyata keçirilən tədbirlərdən söz açıb. Eyni zamanda Şuşa şəhərində il ərzində keçirilmiş beynəlxalq “Xarıbülbül” festivalı, Vaqif poeziya günləri, “Postmünaqişə humanitar gündəliyinin inkişaf etdirilməsi: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf” tədbirləri haqqında məlumat verilib. Vüqar Məmmədov sentyabr ayında keçiriləcək Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı, XVII Bakı Beynəlxalq Caz Festivalı və yaxın müddətdə təşkili planlaşdırılan digər tədbirlər barədə də toplantı iştirakçılarına məlumat verib.

İclasın sonunda aidiyyəti məsələlərə dair qərarlar və tövsiyələr qəbul olunub.

### Azərbaycanla Tacikistan arasında mədəni əlaqələr müzakirə olunub

Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vüqar Məmmədov Nur-Sultan şəhərində MDB-nin Mədəni əməkdaşlıq üzrə Şurasının iclasında iştirak edən Tacikistan mədəniyyət nazirinin müavini Manuçehr Şarifzoda və Tacikistanın Akademik Opera və Balet Teatrının direktoru Kamoliddin Sayfiddinov ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafı, mədəniyyət və incəsənətlə bağlı qarşılıqlı mübadilə, iki ölkənin opera və balet teatrları arasında əməkdaşlığa dair müqavilənin hazırlanması müzakirə edilib.

Beynəlxalq Delfi Komitəsinin direktoru Vladimir Ponyavinin də qatıldığı görüşdə Azərbaycan nümayəndə heyətinin bu il Tacikistanda təşkil olunacaq MDB ölkələri gənclərinin növbəti Delfi Oyunlarında iştirakı məsələsi və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Xalq-ordu birliyinin təcəssümü

## Elmi Bərpa Mərkəzində 27 sentyabr – Anım Gününə həsr olunan tədbir keçirildi

Müasir hərb tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsinin ikinci ildönümü yaxınlaşır. Ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən, xalqımıza əbədi Zəfər ruhu yaşadan haqq savaşımız mədəni-mənəvi dəyərlər sistemimizdə yeni səhifə açıb, müxtəlif yaradıcılıq sahələrinin əsas mövzusuna çevrilib.



Sentyabrın 9-da Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində 27 sentyabr – Anım Günü ilə əlaqədar “Vətən müharibəsi xatirələrdə” adlı tədbir keçirildi.

Vətən uğrunda canından keçən qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra mərkəzin direktoru Zərifə Məlikova xalqımızın qürur qaynağı olan II Qarabağ müharibəsi haqqında söz açdı, Anım Günü barədə danışdı. Bildirdi ki, 44 günlük şərəfli döyüşdə ölkəmizin ərazi bütövlüyü uğrunda şücaət göstərmiş əsgər və zabitlərimizə, canlarını fəda etmiş bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycanda “Anım Günü” kimi qeyd edilir. Anım Günü təkcə 27 sentyabrda deyil, ilin bütün günlərində unudulmamalı, torpaqlarımız uğurunda şəhid və qazi olan oğullarımıza hər birimiz diqqət və qayğımızı əsirgəməməliyik.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində tarixi Qələbəsindən bəhs edən direktor bildirdi ki, bu Zəfərimiz regionda sülhün, sabitliyin və inkişafın təmin olunmasında mühüm əhəmiyyət kəsb edir: “Döyüş meydanında şanlı Ordumuzun əldə etdiyi misilsiz qələbələrlə yanaşı, ölkə rəhbərinin bu həssas və taleyüklü günlərdə apardığı diplomatik mübarizə, dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələr də Azərbaycanın haqq səsini dünyaya çatdırdı. Azərbaycan Qarabağa qovuşdu, tarixi Zəfərə imza atdı, şəhidlərimizin, günahsız insanların qisası döyüş meydanında alındı. Bu Zəfəri bizlərə yaşadan isə Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü Ordumuzdur”.

Direktor bu Qələbədə mədəniyyət sahəsində çalışanların da xidmətinin olduğunu əlavə etdi.

Mərkəzin baş fond mühafizi Pakizə Almazova tədbirin proqramı və iştirak edən qazilər haqqında məlumat verdi.

Əməkdar incəsənət xadimi Məhəbbət Mehdiyeva çıxışında 44 gün davam edən Vətən müharibəsinin xalq-ordu birliyi sayəsində möhtəşəm Qələbə ilə başa çatmasının hər bir Azərbaycan vətəndaşının qəlbində böyük qürur və iftixar hissi yaratdığını dedi.

Daha sonra tədbirə onlayn qoşulan Vətən müharibəsi qazisi, Tovuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşı Yasin Səməndərov döyüş yolundan bəhs etdi. Vətən uğrunda bir ayağını itirsə belə, bu gün azad olunmuş torpaqlarımızda quruculuq işlərindən fəxr duyduğunu dilə gətirdi.

Qazi Seyidəkbər Xalıqov çıxışı zamanı Tərtər-Ağdərə istiqamətində gedən çətin döyüşlərdən, şəhid olan əsgər dostları və komandirlərinin şücaətindən bəhs etdi. O, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının işıqçısı, şəhid Əliağa Məmmədovla birgə 4 noyabr tarixinədək vuruşduqlarını dedi, Qələbə xəbərini isə hospitalda aldığını bildirdi.

Şəhid baş leytenant Rövşən Nurzadənin atası, Xalq artisti Əli Nur möhtəşəm Zəfərimizdən, xalqımızın vətənpərvər övladlarına göstərilən dövlət qayğısından danışdı. Oğlunun döyüş yolundan söz açan sənətkar kövrək xatirələrini bölüşdü, şəhid valideynlərinə səbir dilədi.

Sonda şəhidlərimizin xatirəsinə həsr olunan videoçarxlar nümayiş etdirildi. Tədbir Prezident İlham Əliyevin Zəfər çıxışı və “Xarıbülbül” festivalında səslənən “Bayatı-Şiraz” muğamının sədaları ilə başa çatdı.

**Lalə Azəri**

№67 (1940)
14 sentyabr 2022
www.medeniyyet.az

# Bölgələrdə "Şuşa İli" tədbirləri davam edir

Gəncə Regional Mədəniyyət İdarəsinin (RMİ) təşəbbüsü və Goranboy rayon mədəniyyət müəssisələrinin təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində Nizami Gəncəvinin 881 illiyinə və "Şuşa İli"nə həsr olunan tədbir keçirilib. Tədbirdə çıxış edən Gəncə RMİ-nin rəisi Vasif Cənnətov əlamətdar il münasibətilə idarənin əhatə etdiyi bütün mədəniyyət müəssisələrində silsilə tədbirlərin keçirildiyini bildirib. Tədbirin bədii hissəsində vətənpərvərlik ruhunda mahnılar səsləndirilib.

***



Şəmkir RMİ Göygöl rayon Mədəniyyət Mərkəzi, Aşıq Şəmşir adına Uşaq musiqi məktəbi və Göygöl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Şuşa, sən azadsan!" adlı tədbir keçirilib. Tədbirdə Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev və Şəmkir RMİ-nin rəisi vəzifəsini icra edən Nurəddin Mehdiyev çıxış ediblər. Çıxışlardan sonra rayon Mədəniyyət Mərkəzində yeni yaradılan "Büsat" instrumental ansamblının konsert proqramı təqdim olunub.

***

Ağstafa RMİ Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası yazıçı Yusif Vəzir Çəmənzəminlinin (1887-1947) anadan olmasının 135 illiyinə həsr olunmuş "Şuşa mədəniyyətinin incilərindən" adlı tədbir keçirib. Yazıçının əsərlərindən ibarət kitab sərgisi nümayiş olunub.

# Bərdədə "Muzeyi peşəkardan öyrənək"

Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Muzeyi peşəkardan öyrənək" layihəsi davam edir. Bu ilin aprel ayından reallaşan layihə çərçivəsində nazirliyin regional idarələrinin əhatə etdiyi muzey və Heydər Əliyev mərkəzlərinin əməkdaşları üçün təlimlər təşkil olunur.



Növbəti təlim-seminar Bərdə Regional Mədəniyyət İdarəsi (RMİ) Bərdə rayon Mədəniyyət Mərkəzində gerçəkləşib. Tədbirdə regional idarənin əhatə etdiyi Bərdə, Tərtər, Yevlax rayonlarında və Mingəçevir şəhərində fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyləri, rəsm qalereyaları və Heydər Əliyev mərkəzlərinin direktorları, baş fond mühafizləri və elmi işçiləri iştirak ediblər.

RMİ-nin rəisi Vəsilə Möhsümova bildirib ki, ümummilli lider tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər və müvafiq dövlət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova və muzeyin Ekspozisiya şöbəsinin müdiri Ülviyyə Şəmmədova tərəfindən "Muzey sahəsində müasir çağırışlar", "Fond və mühafizə işi", "Dünya muzeyləri" və digər mövzular üzrə iştirakçılara təlimlər keçirilib.

# Mədəniyyət müəssisələrindən qısa xəbərlər



Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə RMİ-nin təşəbbüsü və təşkilatçılığı ilə şəhər Heydər Əliyev Mərkəzində "Ulu öndər Heydər Əliyevin Nizami Gəncəvi irsinin təbliğində rolu" mövzusunda tədbir keçirilib.

Dahi Azərbaycan şairinin 881 illiyinə həsr olunmuş tədbirdə icra başçısının müavini Adil Tağıyev, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, elm, ədəbiyyat xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxış edənlər ulu öndərin Nizami yurduna, eləcə də böyük şairin irsinə diqqət və qayğısından danışıblar. Şəhər Uşaq incəsənət məktəbi, şəhər 1, 2, 3, 4 və 5 nömrəli Uşaq musiqi məktəblərinin müəllim və şagirdlərinin ifasında musiqi nömrələri səslənib.

***

Ağdaş RMİ Göyçay rayon MKS-də "Gəlin, kitab oxuyaq!" adlı "açıq kitabxana" təşkil edilib. Oxuculara Azərbaycan, dünya ədəbiyyatı nümunələri təqdim olunub.

***

Sumqayıt RMİ Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbinin xanəndə ixtisası üzrə şagirdi Ülvi Ağamalızadə "Sehrli Aləm" Cəmiyyəti tərəfindən türkdilli ölkələr arasında keçirilən "Pöhrə – 2022" istedad müsabiqəsində baş mükafata layiq görülüb.

***



Ağcabədi RMİ-nin rəisi Qalib Həsənov idarənin tabeliyində olan Ağdam rayonunda fəaliyyət göstərən Güllücə, Qiyaslı, Əhmədağalı, Qaradağlı, Əfətli, Xındırıstan və Seyidli kənd uşaq musiqi məktəblərinin kollektivləri ilə görüş keçirib. Görüşdə musiqi məktəbində çalışan müəllimlərin təklif və şikayətləri dinlənilib, mövcud problemlərin aradan qaldırılması üçün tövsiyələr verilib.

***



Lənkəran RMİ Lənkəran şəhər Mədəniyyət Mərkəzində şəhər Uşaq rəssamlıq məktəbi məzunlarının ali və orta ixtisas təhsil müəssisələrinə daxil olması münasibətilə tədbir keçirilib. Tədbirdə çıxış edən idarə rəisi Şahin Şahbazov məktəbin respublika və beynəlxalq müsabiqələrdə əldə etdiyi uğurlardan danışıb, məzunları təbrik edərək gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Mədəniyyət Mərkəzində həmçinin Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı Qənirə Camalzadə ilə görüş keçirilib. Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən görüşdə çıxış edənlər yazıçının həyat və yaradıcılığı haqqında söhbət açıblar.

# Vətən oğullarının fədakarlığı unudulmur



Quba rayonunun İkinci Nügədi kəndində Vətən müharibəsi şəhidi Eynulla Lətifovun xatirəsinə inşa olunan abidə-bulaq kompleksi istifadəyə verilib. Eynulla Lətifov 2001-ci il sentyabrın 8-də İkinci Nügədi kəndində anadan olub. Vətən müharibəsinin ilk günündən manqa komandiri kimi döyüşlərə qatılıb, oktyabrın 19-da Xocavənd rayonunda şəhidlik zirvəsinə ucalıb. "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

***

Zaqatala rayonunun Car kəndində şəhid Nemət Kusayevin xatirəsinə inşa edilmiş abidə-bulağın açılışı keçirilib. Nemət Kusayev 1988-ci il dekabrın 4-də Car kəndində anadan olub. 2007-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2008-ci ilin martında döyüş tapşırığını yerinə yetirərkən şəhadətə yetib.

***



Qəbələ şəhərində Vətən müharibəsi şəhidi İqbal Babayevin doğum günündə şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə inşa edilən kompleksin açılışı olub. Tədbirdə çıxış edən şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

***

Ağstafada Vətən müharibəsi şəhidi Nihad Abdullayevin xatirəsinə inşa olunan bulaq-kompleksinin açılışı olub. Mərasimdə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, Nihad Abdullayevin və digər ağstafalı şəhidlərin ailə üzvləri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***



Masallı RMİ Masallı rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi Niyaməddin Sultanzadənin doğum gününə həsr olunmuş "Şəhidlik ən uca və müqəddəs zirvədir" mövzusunda tədbir keçirilib.

**Hazırladı: N.Məmmədli**



# Bölgə səhnələrinə nəzər

## Yeni mövsümə necə başlayırlar?

*əvvəli səh. 1-də*

Cənub bölgəsinin əsas səhnəsi olan Lənkəran Dövlət Dram Teatrı sentyabrın 16-da yeni mövsümə başlayacaq. Direktor Tofiq Heydərovun verdiyi məlumata görə, həmin gün sənətsevərlərə teatrın baş rejissoru Anar Babalının qələmə aldığı və quruluş verdiyi "Haqqın 44 günü" tamaşası təqdim olunacaq. Xatırladaq ki, kollektiv Vətən müharibəsində tarixi Zəfərə həsr olunan bu səhnə işi ilə dekabrı ayında İranda keçiriləcək "Sahibdelan" 12-ci Beynəlxalq mistik teatr festivalında Azərbaycanı təmsil edəcək.

Teatr rəhbərinin sözlərinə görə, ilin sonuna kimi Lənkəran sənətsevərləri Xalq yazıçısı Kamal Abdullanın "Casus", İlqar Fəhminin "Qanlı namə" və mərhum yazıçı, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevin "Prokuror" əsərləri əsasında hazırlanacaq tamaşalara da baxa biləcəklər. Hazırda hər üç səhnə əsərinin məşqləri davam etdirilir.

***

Şəki Dövlət Dram Teatrı mövsümü sentyabrın son həftəsində Xalq şairi, dramaturq Vaqif Səmədoğlunun "İntihar" əsəri əsasında səhnələşdirilmiş eyniadlı tamaşa ilə açacaq. Tamaşanın quruluşçu rejissoru Orxan Həmidli, quruluşçu rəssamı Nicat Məmmədovdur, rolları Əməkdar artistlər Əbülfət Salahov, Xanlar Həşimzadə, Rəhim Qocayev, aktyorlar Xəyal Salahov, Brilyant Babayeva və digərləri ifa edəcəklər.

Eyni zamanda teatrda Xaqani Əliyevin "Çələbi xana Qızılqaya xəyanəti" pyesinin tamaşaya qoyulması üçün hazırlıq gedir. Həmçinin teatrın nəzdində yaradılmış gənc rejissorlar laboratoriyası və gənc aktyorların hazırlanması üçün teatr studiyası artıq öz işinə başlayıb.

***

Gəncə Dövlət Dram Teatrı yeni mövsümə sentyabrın 17-də M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının tamaşası ilə başlayacaq.

Repertuar planında nəzərdə tutulan Con Patrikin "Qəribə missis Sevic" tamaşası artıq təhvil verilib. Tamaşanın quruluşçu rejissoru, teatrın baş rejissoru Elşad Əhmədovdur. Qarşıdakı dövrdə Ejen İoneskonun "Kral ölür", Avksenti Saqarellinin "Xanuma", Jorj Feydonun "Qadın dərzisi" və Abdulla Şaiqin "Danışan gəlincik" (uşaqlar üçün) tamaşaları hazırlanacaq.

Artıq məşqləri başlanan "Kral ölür" tamaşasına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının rejissoru Tural Mustafayev quruluş verir. Səhnə tərtibatçısı Dövlət Gənc Tamaşaçılar Teatrının baş rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Vüsalə Bədəlovadır. Rolları Xalq artisti Pərvanə Qurbanova, Əməkdar artist Elxan Yunis, Sevda Orucova, İlham Hüseynov, aktyorlar Günay Cabbarova, Ruslan Hüseynov oynayacaqlar. Tamaşanın premyerası oktyabr ayı üçün nəzərdə tutulub.

***

Qazax Dövlət Dram Teatrı isə mövsümünü sentyabrın 20-də Əhməd Orucoğlunun "Qulluqçu axtarıram" tamaşası ilə açacaq. Avqust ayında teatr bu tamaşa ilə Şəmkir şəhərində qastrol səfərində də olub. Kollektiv sentyabr və oktyabr aylarında səhnə əsərini Ağstafa, Tovuz, Gədəbəy, Daşkəsən və Göygöl rayonlarında təqdim edəcək.

Teatrın repertuar planına əsasən, ilin sonunadək Altay Məmmədovun "Yadındamı?" və Jalə İsmayılın "Min bir gecəlik kitabxana" əsərləri tamaşaya qoyulacaq.

***

Ağdam Dövlət Dram Teatrı yeni mövsümdə seyrçiləri ilə ilk görüşə 13 sentyabrda S.İbrahimlinin "Azad Şuşa" əsəri əsasında baş rejissoru Kərim Həsənovun hazırladığı eyniadlı tamaşa ilə gəlib. Tamaşanın quruluşçu rəssamı Müşfiq Qarayev, musiqi tərtibatçısı Elşən Yusifovdur.

Oktyabrda Xalq yazıçısı Afaq Məsudun "Can üstə" əsəri əsasında rejissor Səbuhi Əhmədovun hazırladığı tamaşa təhvil veriləcək. Bundan başqa, repertuar planında Xanımana Əlibəylinin "Dovşanın ad günü" və Əziz Nesinin "Tənha qadınlar" əsərləri var.

***

Yeni mövsümünə hamıdan tez – sentyabrın 9-da Turqut Özakmanın "Adət" tamaşası ilə başlayan Qusar Dövlət Ləzgi Dram Teatrı da yeni mövsümdə qaynar yaradıcılıq həyatı gözləyir. Kollektiv hazırda Nəriman Həsənzadənin "Qarabağnamə" əsəri üzərində çalışır. Teatrda ilin sonunadək yerli müəllif Asəf Mehmanın "Xarıbəy, Sarıbəy" komediyası da hazırlanacaq.

***

Mingəçevir Dövlət Dram Teatrı mövsümü sentyabrın 25-i iki premyera ilə açmaq niyyətindədir. Bunlar Günel Məcidovanın (yerli müəllif) "Münəccim Səlimin nağılları" (uşaqlar və böyüklər üçün mistik nağıl) və Dario Fonun "Rəngsazların xatirələri yoxdur" (klounlar üçün fars) tamaşalarıdır.

Yaradıcı heyət hazırda Elçin Məhərrəmlinin (yerli müəllif) "Manej" əsərinin üzərində çalışır. Həmçinin M.F.Axundzadənin "Hacı Qara" əsəri ilin sonunadək təhvil veriləcək. Plandan kənar tamaşalara gəlincə, oktyabr ayında da dramaturq İsmayıl İmanın "Astara bağları" pyesi üzərində iş başlanacaq.

***

Salyan Dövlət Kukla Teatrı yeni mövsümdə ilk tamaşanı sentyabrın 20-də Neftçala rayonunda göstərəcək. Veteran mədəniyyət işçiləri ilə görüşdə "Sülh naminə birləşək!" kompozisiyası təqdim olunacaq. Sentyabrın 22-də isə Rəvan Tohidoğlu "Bir də etmərəm" nağıl-tamaşasının premyerası olacaq. Hər iki tamaşanın quruluş müəllifi Laləzar Hüseynovadır.

İlin sonunadək teatrda daha iki yeni səhnə işi – Redyard Kiplinqin "Mauqli" (quruluşçu rejissor Rafiq Mirzə) və Xanımana Əlibəylinin "Dovşanın ad günü" (quruluşçu rejissor L.Hüseynova) tamaşaları hazırlanacaq. Həmçinin Rafiq Rəhimlinin "Sönmüş talelər" lirik-psixoloji dramı (quruluşçu rejissor L.Hüseynova) tamaşaçılara təqdim olunacaq.

***

Bu il yaranmasının 50 illik yubileyini qeyd edəcək Qax Dövlət Kukla Teatrı da yeni mövsümə həvəslə hazırlaşır. Kollektiv yeni mövsümdə sentyabrın 17-də Hans Xristian Andersenin "Çirkin ördək balası" kukla tamaşası ilə balacaların qarşısına çıxacaq.

Rəhman Əlizadənin "Tülkünün uçuşu", Nizami Gəncəvinin "Xeyir və Şər", Pavel Morozovun "Yırtıcı dovşan" əsərləri əsasında tamaşalar da sentyabr repertuarındakı nümunələrdir. Oktyabrın sonunadək Otfrid Proyslerin "Balaca cadugər" tamaşasının premyerası da nəzərdə tutulub. Teatrın yubiley tədbir-tamaşası da qarşıdakı yaradıcılıq planlarına daxildir.

**Həmidə Nizamiqızı**

# "Mən dünyanı oxuyuram"

Kürdəmirdə şəhid və qazi uşaqlarının psixoloji dəstəklənməsi, mütaliə mədəniyyətinin formalaşdırılması məqsədilə "Mən dünyanı oxuyuram" adlı layihəyə başlanılıb.

Layihə üzrə ilk təlim Kürdəmir rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində keçirilib. Təlimdə çıxış edən Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı layihənin məqsəd və məramı haqqında məlumat verib. Qeyd edib ki, layihə uşaqların sosial-psixoloji tərbiyəsinin, oxu, nitq və mütaliə mədəniyyətinin inkişafına, onların şəxsiyyət kimi formalaşmasına dəstək məqsədi daşıyır.

Bir il müddətində davam edəcək layihə mütəxəssislərin və kitabxanaçıların hazırladıqları proqram əsasında reallaşacaq. Tədbirlərin ayda iki dəfə olmaqla şənbə günləri, 5-8 və 9-13 yaşlı uşaqlardan ibarət iki qrup üzrə keçiriləcək. Ehtiyac olduğu halda aztəminatlı ailələrin uşaqlarının da dəvət olunması nəzərdə tutulur.



Mütəxəssis-psixoloqlar Aynurə Xudanlı, Ləman Səfərova və kitabxananın əməkdaşları tərəfindən keçirilən ilk təlimdə qeyd edilən yaş qrupları üzrə doqquz nəfər şəhid və qazi övladı iştirak edib. Təlim uşaqların psixoloji durumunun yaxşılaşdırılması, dünyagörüşlərinin formalaşdırılması mövzusuna həsr olunub.

**Məryəm Əliyeva**
**Kürdəmir rayon MKS-nin baş biblioqrafı**

# V ANİMAFİLM festivalı sona çatıb

## Fransalı rejissorun "İki truba üçün hekayə"si baş mükafatı qazanıb

*əvvəli səh. 1-də*

Yerli müsabiqənin "Ən yaxşı qısametrajlı Azərbaycan animasiya filmi" nominasiyası üzrə qalibini isə Fransanın Bakıdakı səfirliyinin Mədəni fəaliyyət və əməkdaşlıq üzrə müşaviri Çarlz Denyer tərəfindən açıqlanıb. Mükafata rejissor Ülviyyə Məmmədovanın "Ağ qorxu" filmi layiq görülüb. Bu nominasiyada xüsusi seçim mükafatını rejissor Kövsər Qurbanın "Bir damla" filmi alıb. Bildirilib ki, "Ən yaxşı qısametrajlı Azərbaycan animasiya filmi" nominasiyasının qalibi Fransada dünyanın ən böyük animasiya festivalı olan "Annecy" Beynəlxalq Animasiya Film Festivalına qatılmaq imkanı qazanıb.

Tədbirdə vorkşoplara qatılmış iştirakçıların iqlim dəyişikliyi mövzusunda qısa animasiya rolikləri nümayiş etdirilib.

Daha sonra digər qaliblərin adları açıqlanıb. "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi" nominasiyasında rejissor Ana Çubinidzenin (Gürcüstan, Fransa) "Franzy's Soup-Kitchen" ("Franzinin şorba mətbəxi"), "Ən yaxşı televiziya animasiya serialı"nda fransalı rejissor Sedrik Laşenaudin "Grizzy və Lemminqlərin dünya turu – Lemminqlər haqqında əfsanə", "Ən yaxşı qısametrajlı eksperimental və ya abstrakt animasiya filmi" üzrə portuqaliyalı rejissor Nelson Fernandesin "Us" ("Bizi"), "Ən yaxşı musiqili animasiya videosu" nominasiyasında italiyalı rejissorlar Mario Kreyl Sirillo və İzabel Emili Viqandın "Transparent Black and Iron Rich Red" ("Şəffaf qara və dəmirlə zəngin qırmızı"), "Ən yaxşı tələbə animasiya filmi" kimi isə çinli rejissor Tanq Rehunun "A Dog under Bridge" ("Körpünün altında bir it") filmləri qalib olublar.

Tamaşaçı seçimi müsabiqəsinin qalibi Ana Çubinidzenin "Franzinin şorba mətbəxi" filmi olub.

Sonda çıxış edən festivalın art-direktoru Nəzrin Ağamalıyeva 2023-cü ildə keçiriləcək altıncı festivalın mövzusunun "Gender bərabərliyi"nə həsr olunacağını diqqətə çatdırıb.

Qeyd edək ki, festivalda filmləri beynəlxalq münsiflər heyəti – Jonathan Laskar (İsveçrə), Tilly Wallace (Böyük Britaniya), Markus Ovre (Böyük Britaniya), Nodar Beqiaşvili (Gürcüstan),



Jorn Leeuwerink (Niderland) və Daniel Bird (Böyük Britaniya) kimi peşəkarlar dəyərləndirib.

Bu il də festivalın uşaq jürisi fəaliyyət göstərib. 22 üzvdən ibarət heyət maarifləndirici və əyləncəli uşaq proqramında iştirak etdikdən sonra "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi" və "Ən yaxşı animasiya seriyalı" kateqoriyaları üzrə iki qalibi seçib.

Festivalda ümumilikdə 29 ölkədən uşaqlar və böyüklər üçün çəkilmiş 121 animasiya filmi nümayiş etdirilib.

---

# "Əkinçi"dən "Çapar"a

## Zərdabinin yubileyinə həsr edilən tədbirdə yeni nəşrlər təqdim olundu

**Bu il milli mətbuatımızın banisi, görkəmli təbiətşünas alim, maarif və mədəniyyət xadimi Həsən bəy Zərdabinin (1842-1907) anadan olmasının 180 illik yubileyidir. Sentyabrın 11-də "Gənclik Mall"da yerləşən "CinemaPlus" mərkəzində əlamətdar yubileyə həsr olunan "Əkinçi"dən "Çapar"a" adlı tədbir keçirildi.**

"Əkinçi"ni nəşr etdirməsi fenomenal bir hadisədir.

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid milli mətbuatımızın keçdiyi tarixi yoldan bəhs etdi. Söylədi müsahibələri toplanıb. Oxucuların ilk dəfə tanıyacağı bu varislər ailə fotoşəkillərini və ailə sirlərini ilk dəfə Hafiz Əhmədova açıqlayıblar.

"Azərbaycan Cümhuriyyəti (1918-1920)" (müəlliflər – Ədaqında araşdırma yazılarından ibarətdir.

"Rəsulzadə xatirələri" ("Memuar ədəbiyyatı" seriyasından 2-ci kitab) kitabında Cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadənin yazdığı







Tədbir "Çapar Yayınları"nın təşkilatçılığı, "Fil Agency" və "Cambridge International Academy"nın dəstəyi ilə gerçəkləşdi.

Əvvəlcə tədbir iştirakçıları "Çapar Yayınları" tərəfindən nəşr edilmiş yeni kitablarla tanış oldular. Sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirildi.

Tarixçi, publisist, professor Ədalət Tahirzadə çıxışında bildirdi ki, "Çapar" nəşriyyatı bu gün Həsən bəy Zərdabi maarifçilik ənənələrini layiqincə davam etdirir.

Tanınmış jurnalist, filologiya üzrə elmlər doktoru, professor Qulu Məhərrəmli qeyd etdi ki, "Əkinçi" qəzeti millətin sözü deyilmədiyi bir vaxtda meydana gəldi. Ona görə də Həsən bəyin ki, insan hissləri içərisində onu ən çox kövrəldən minnətdarlıq duyğusu, vəfa və etibardır: "Bugünkü tədbirin bütün ruhundan bu vəfa və minnətdarlıq duyğusu yağır. Bu gün Həsən bəy Zərdabidən başlayaraq Azərbaycan xalqının həyatında böyük rol oynamış insanların adlarını çəkirik...".

Daha sonra "Çapar Yayınları"nın təsisçisi Yusif İlhamoğlu, baş redaktoru Dilqəm Əhməd və digərləri çıxış edərək tədbirdə təqdim olunan yeni kitablar haqqında məlumat verdilər.

Bildirildi ki, Hafiz Əhmədovun "Varislərlə müsahibələr – 1" kitabında müəllifin XIX-XX əsrlərdə Azərbaycanın ictimai, siyasi və sosial həyatında önəmli rol oynamış ziyalılarının müxtəlif ölkələrdə yaşayan varisləri ilə lət Tahirzadə, Dilqəm Əhməd) kitabında Azərbaycan Cümhuriyyətinin qurulması və 23 ay müddətində gördüyü işlər təsvir olunub. Kitab bu günə kimi ikisi təkrar olmaqla 5 dildə nəşr olunub.

"Azərbaycan türk mətbuatı" (müəllif – Mirzəbala Məhəmmədzadə) kitabında müəllifin XIX-XX əsrlərdə Azərbaycanda fəaliyyət göstərən qəzet və jurnallar haqqında biblioqrafiyası və mühacirət dövründə Azərbaycan mətbuatı haqqında məqalələri toplanıb.

"Qurtuluş savaşının azərbaycanlı zabitləri" (müəlliflər – Ədalət Tahirzadə, Orxan Cəbrayıl) kitabı müəlliflərin Türkiyə Cümhuriyyətinin qurulmasında əsas mərhələ sayılan Qurtuluş savaşının azərbaycanlı zabitləri haqvə onun haqqında yazılan xatirələr toplanıb. Həmçinin ilk kitabda Rəsulzadənin indiyədək geniş kütləyə məlum olmayan yeni fotosu verilib. Hər üç kitabın redaktoru Dilqəm Əhməddir.

Tədbirdə həmçinin Əkbər N.Nəcəfin "Moğol şahmatı - Hülakü xan", Altay Məmmədovun "Kəngərlər: qədim dünyanın gizli fatehləri", Dimes Hak Alerlinin "Şah Xətai: şiə, səfəvi, yoxsa qızılbaş?!", Dilqəm Əhmədin "Milliyyəti türk" və Ədalət Tahirzadənin "Həsən bəy Ağayev" və yazıçı Kənan Hacının "Fəna fasiləsi" (roman) kitablarının da təqdimatı oldu.

Sonda Cümhuriyyət tarixinə aid nadir arxiv materialları nümayiş etdirildi.

**N.Məmmədli**

---



# Biliyiniz möhkəm olsun!

## Bakıda "Bilik" kitab sərgi-yarmarkası

15 sentyabr – Bilik Günü ərəfəsində paytaxtın Nizami rayonundakı Heydər Əliyev adına park-bulvarda I "Bilik" kitab sərgi-yarmarkası keçirildi. "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyi (ANAİB) və Nizami Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 9-11 sentyabr tarixində gerçəkləşən sərgi bu yaxınlarda yol qəzasında həyatını itirən "Bakumoz" kitab evinin sahibi, ANAİB-in kitabçı yoldaşı Nurəddin Məmmədlinin xatirəsinə ithaf edilmişdi.

Açılış tədbirində ANAİB idarə heyətinin üzvü, "Xan" nəşriyyatının direktoru Səbuhi Şahmursoy qeyd etdi ki, bu günə qədər qurum tərəfindən bir sıra kitab sərgiləri və festivallar keçirilib. "Biliyiniz möhkəm olsun!" şüarı altında keçirilən "Bilik" kitab sərgisində məktəbli ləvazimatı, qeyd dəftərləri, test toplulları, həmçinin bədii əsərlərin satışı təşkil edilib. Sərgidə eyni zamanda valideynlər övladlarının istifadə etmədikləri kitabları ehtiyacı olan uşaqlara hədiyyə edə bilərlər.

Nizami Rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Əli Axundov bildirdi ki, sərginin keçirildiyi məkan Nizami rayon sakinlərinin ən çox üz tutduqları yerlərdən biridir. Sərgiyə böyük maraq var. Ziyarətçilər həm kitab alır, həm də yazarlarla görüşürlər.

"Ting" nəşriyyatının rəhbəri, Yazıçılar Birliyinin üzvü, uşaq yazarı Çinarə Köçərli vurğuladı ki, budəfəki sərgidə iştirak edən 24 nəşriyyat və mağaza öz məhsullarına 20 faizdən 80 faizədək endirimlər nəzərdə tutub. Oxuculara "Ting" nəşriyyatı tərəfindən 30-a yaxın kitab təklif olunur.

Qeyd edək ki, üç gün davam edən sərgidə müəlliflərin imza mərasimləri, əyləncəli şou-proqramlar, şeir saatları, canlı musiqi dəqiqələri və s. təşkil edilib. Aktrisa İranə Kərimovanın ifasında mahnı səslənib, yazarlar Elxan Elatlı, Rövşən Abdullaoğlu, Fatimə Alxaz və Ülviyyə Tahirin oxucularla görüşü gerçəkləşib.

**Nurəddin**

---

# "Rənglərə münasibət birbaşa ruhun vəziyyəti ilə bağlıdır"

## İnna Kostina: "Sənətin bir neçə növü ilə eyni anda məşğul olmağı xoşlayıram"

**Rənglər dünyasını və bu aləmə qərq olan bir xanım təsəvvür edin. Sözsüz ki, qadın olan yerdə gözəllik var, əlvanlıq var, nikbin notlar var...**

Əməkdar rəssam İnna Kostina həyatını rənglərə, sənətə həsr edib. Əbəs deyildir ki, rəssam batika texnikası ilə "Simurq" mövzusunda yaratdığı silsilə əsərlərdə Simurqu əsrarəngiz qadın-quş adlandırıb. İnna Kostina bu barədə deyir: "Simurq həm Şərq, həm də slavyan mifologiyasında mövcud olan qadın-quş obrazıdır. Şərq mifologiyasında Simurq peyğəmbərlik qabiliyyətlərinə malikdir. Şərqdə Simurq taleyin aləti kimi çıxış edən sirlərin qoruyucusu idi. Slavyan mifologiyasında Simurq obrazı ruhun dirilişinin simvolu olan qız başlı Cənnət quşu – Sirin quşuna uyğundur. Bir çox dini ənənələrdə quşlar yerlə göy arasında əlaqə qurur, ürək və ruhun simvolu kimi çıxış edir. Bu gün qloballaşma dövründə, az qala milli sərhədlərin silindiyi, mədəniyyətlərin birləşdiyi bir dövrdə etnik kimliyin qorunub saxlanılması problemi kəskin şəkildə ortaya çıxır. Simurq obrazı ruhun və Azərbaycan ruhunun gücünün simvolu olaraq mənə xüsusilə aktual görünür...".

Dosye: İnna Kostina 1962-ci ildə Bakı şəhərində anadan olub. 1984-cü ildə Moskva İncəsənət Texnikumunun Rəngkarlıq fakültəsini bitirib. 1984–1989-cu illərdə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda bədii film və televiziya üzrə quruluşçu rəssam ixtisasına yiyələnib.



Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında Rəngkarlıq və kino kafedrasında dərs deyir. Ötən əsrin 90-cı illərindən batika texnikasında ipək üzərində işləyən rəssam kimi məşhurlaşıb. Bir sıra yerli və beynəlxalq müsabiqələrin laureatı və 250-dən artıq sərginin iştirakçısıdır.

Özünəməxsus üslubu ilə tanınan İnna Kostinanın əl işləri 1987-ci ildən başlayaraq İtaliya, Norveç və Almaniya – ümumilikdə 30-dan çox ölkədə muzey və qalereyalarda nümayiş olunub. Əsərləri həmçinin Azərbaycan Milli İncəsənət Muzeyi, Müasir İncəsənət Muzeyi, Tomsk Vilayət İncəsənət Muzeyi (Rusiya), "Old Gallery" və Karvasla Muzey Mərkəzi (Gürcüstan), "IL Leone" İncəsənət Mərkəzində (İtaliya), həmçinin ölkəmizdə və xaricdə şəxsi kolleksiyalarda saxlanılır.

Bu il 60 illik yubileyini qeyd edən rəssamla müsahibəmiz sənətə sevgi mövzusu üzərində quruldu.

*– Rəngkarlıq, rəsm sizin üçün nə deməkdir?*

– Rəssamlıq artıq çoxdan həyatımın ayrılmaz bir hissəsinə çevrilib. Hava, su kimi mənə lazım olan və bunsuz yaşaya bilmədiyim bir anlam kəsb edir. Hər gün və istənilən şəraitdə işləyirəm.

*– İndiyədək onlarla fərdi sərginiz təşkil olunub. Son sərgilərinizdən olan "Yerin-göyün bağları" nəyi ehtiva edirdi?*

– Siyahımda Bakıda və dünyanın müxtəlif şəhərlərində 36 fərdi, 300 qrup sərgisi və festival yer alır. 2021-ci ilin noyabrında Müasir İncəsənət Muzeyində açılan "Yerin-göyün bağları" sərgim insan ruhunun əbədiliyini özündə ehtiva edirdi. Burada uydurma, ideallaşdırılmış və ovsunlanmış dünya real dünya ilə birləşir. Lakin bu dünyaların müasir olması mütləq deyil – onlar sirli, sanki zamandan kənardadırlar...

*– Sərgilərinizə maraqlı adlar seçirsiniz...*

– Düşünürəm ki, başlıq və ideya sərginin mühüm hissəsidir. Bəzən ad özü gəlir, bəzən uzun müddət axtarırsan.

*– Sizdə batika texnikası ilə ipək üzərində işləməyə maraq necə yarandı?*

– Təsviri sənətin istənilən növündə özümü sınamaq mənim üçün çox maraqlıdır: Batika qədim və mürəkkəb texnikadır, bir çox nüansları var. 1995-ci ildən bununla məşğul oluram. Bu texnikada işlədiyim əsərlər bir sıra ölkələrdə və bir çox muzeylərin kolleksiyalarında nümayiş etdirilir, həmçinin biennalelərdə mükafatlandırılıb. Sənətin bir neçə növü ilə eyni anda məşğul olmağı xoşlayıram. Texnikanın seçimi daha çox düşündüyün əsərin ideya və təcəssümünə hesablanır. Düşüncələrimi, hisslərimi ifadə etməyə hansı üslub daha yaxındırsa, onu seçirəm.

*– Yubileyinizi necə qeyd etdiniz?*

– Yubileyimi Sakit okeanın sahillərində qeyd etdim. Soyuq sularda üzmək mənim ən böyük arzum idi və bu arzum da gerçəkləşdi...

*– Qarşıda sərginiz gözlənilirmi?*

– Latviyanın Gulbene muzeyində batika texnikası ilə işlədiyim ipək boyamalar və rəsmlərimdən ibarət fərdi sərgim var. Sentyabrın 30-dək davam edəcək sərgi Latviyanın Azərbaycandakı Səfirliyinin dəstəyi ilə təşkil olunub. Yaxın vaxtlarda isə böyük yubiley sərgimə hazırlaşıram. Hər bir sərgi rəssam həyatının müəyyən bir dövrünün hesabatıdır.

*– Avtoportretiniz varmı?*

– Bəli, bir neçə avtoportretim var. Amma inanıram ki, istənilən səmimi yaradıcılıq əsəri rəssamın özünüifadəsi, yeni avtoportretidir...

*– Əsas rəngləriniz hansılardır? Rəssam üçün yaş artdıqca rənglər də dəyişirmi?*

– Rənglərə münasibət birbaşa ruhun vəziyyəti ilə bağlıdır. Düşünürəm ki, önəmli olan yaşadığınız illərin sayı deyil, həyat təcrübəsidir.

*– Sizcə, sənətin missiyası nədir?*

– İnsanlara insan olmaqda kömək etmək. Bunu onların düşüncələrinə, həyata baxışlarına təsir anlamında deyirəm.

*– Pedaqoq kimi bu sənətin sirlərini gənclərə necə açırsınız?*

– Dövlət Rəssamlıq Akademiyasında dərs deyirəm. Rəngkarlıq kafedrasının dosenti və Kino və televiziya rəssamlığı emalatxanasının rəhbəriyəm. Tələbələrimi çox sevirəm. 1996-cı ildən istedadlı uşaqlar üçün "7 əlvan kəpənək" adlı studiya yaratmışam və bu gün də rəhbərlik edirəm. Studiyaya uşaqlarla yanaşı böyüklər də gəlir. İstedadlı insanlar çoxdur. Onlara bu istedadı açmaq üçün yardımçı olmaq lazımdır. Həmçinin YARAT Müasir İncəsənət Məkanında böyüklər üçün mütəmadi rəngkarlıq və batikadan ustad dərsləri keçirəm.

*– Gənc rəssamlara sözünüz varmı?*

– Gənclərə sözüm budur ki, öz yolunuzu axtarın, onu hər hansı formada ifadə etməkdən çəkinməyin.

*– Bir daha sizi yubileyiniz münasibətilə təbrik edir, cansağlığı və sənət uğurları arzulayıram.*

– Mən də müsahibəyə və diqqətinizə görə təşəkkür edirəm. Sonda isə bildirmək istəyirəm ki, yubiley ilimdə mənim üçün ən unudulmaz anlardan biri doğma Şuşamızda, Cıdır düzündə "Sarı gəlin" mahnısını ürəkdən, bütün qəlbimlə ifa etməyim oldu. Bu, əsl zövq və xoşbəxtlik idi...

**Lalə Azəri**

# Dirijor Fazil Əliyev vəfat edib

Tanınmış dirijor, Əməkdar incəsənət xadimi Fazil Əliyev sentyabrın 5-də ABŞ-ın Nyu-Cersi ştatında vəfat edib.



Fazil Böyükağa oğlu Əliyev 23 iyun 1945-ci ildə Bakı şəhərində anadan olub. 1952-ci ildə 31 nömrəli orta məktəbə daxil olub, 1960-cı ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda təhsilini davam etdirib. 1962-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Dirijorluq fakültəsinə, eyni zamanda Azərbaycan Dövlət Politexnik İnstitutunun İnşaat fakültəsinin axşam şöbəsində oxuyub. Hər iki təhsil ocağını fərqlənmə diplomu ilə bitirib.

"Tallin-1975" beynəlxalq mahnı müsabiqəsinin laureatı olan Fazil Əliyev Azərbaycan Dövlət Xor Kapellasında dirijor kimi fəaliyyət göstərib.

O, həmçinin Böyük Vətən müharibəsi veteranlarının xor kollektivinin yaradıcısı, bədii rəhbəri və baş dirijoru olub. Veteranlar xorunun repertuarında rus, Ukrayna və digər xalqların mahnıları ilə yanaşı Azərbaycan bəstəkarlarının əsərləri də geniş yer tutub. Kollektiv daha çox yarandığı dövrün tələblərinə uyğun mahnılarla, xüsusən müharibənin ağır günlərində ordunu döyüşə ruhlandıran, sonralar isə düşmən üzərində qələbəni əks etdirən və nəhayət, sülhə həsr olunmuş əsərlərlə dövlət tədbirlərində, bayram mərasimlərində, radio və televiziya verilişlərində çıxışlar edib, xalqın dərin rəğbətini qazanıb. Fazil Əliyev bu kollektivə 1992-ci ilə qədər rəhbərlik edib.

Musiqi xadiminin fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib, o, respublikanın "Əməkdar mədəniyyət işçisi" və "Əməkdar incəsənət xadimi" fəxri adlarına layiq görülüb.

1993-cü ildə ABŞ-a köçən dirijor orada Azərbaycan mədəniyyətini yüksək səviyyədə təbliğ edirdi.

Fazil Əliyevin xatirəsi ailəsinin və sənət dostlarının qəlbində əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

**Lalə Azəri**

# "Azərbaycan – qədim sivilizasiya məskəni"

## Layihənin növbəti buraxılışı Çıraqqala haqqındadır

Mədəniyyət Nazirliyinin "Azərbaycan – qədim sivilizasiya məskəni" adlı videolayihəsinin dördüncü buraxılışı təqdim olunub. Növbəti videomaterial Şabran rayonu ərazisində yerləşən V-VI əsrlərə aid Çıraqqala haqqındadır.

Əsrlər boyu təbii fəlakətlərə, dövrün qasırğalarına mətanətlə sinə gərərək əcdadlarımızın tarixini yaşadan Çıraqqala Şabran rayon mərkəzindən təxminən 25 km-də sıldırım qayanın zirvəsində yerləşir. Vaxtilə Sasani hökmdarlarının tapşırığına əsasən istehkam məqsədilə tikilən bu əsrarəngiz memarlıq nümunəsi Gilgilçay səddinin baş qarovulxanası olub.

Çıraqqalanın yerləşdiyi möhtəşəm Gilgilçay səddi, bəzi mənbələrə görə, məşhur Çin səddindən sonra dünyada ikinci nəhəng müdafiə istehkamı olub.

Çıraqqala tarixi abidə kompleksi 2003-cü ildə qoruq elan edilib. Azərbaycan Respublikası Prezidentinin 2019-cu ildə imzaladığı sərəncama əsasən, Çıraqqalada möhkəmləndirmə və bərpa-konservasiya işlərinə başlanılıb.

Çıraqqala mərkəzi qala da daxil olmaqla 17 bürcdən ibarət düzbucaqlı formada olub. Həmin bürclərin ancaq üçü salamat qalıb. Ümumilikdə isə qalanın izləri məlum olan 8 bürcündə bərpa-konservasiya işləri həyata keçirilir. Bərpa-konservasiya layihəsində tarixi abidəni ziyarət edənlərin rahatlığını təmin etmək məqsədilə ərazidə yerləşən meşənin içindən qalaya qalxacaq piyadalar üçün yol, eləcə də qala divarları boyu yolun salınması da nəzərdə tutulub.

# "Şuşa mədəniyyətinin inciləri": "Açma-yumma" xalçası






Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Şuşa mədəniyyətinin inciləri" layihəsinin "Qarabağ xalçaçılıq məktəbi – Şuşa" bölməsi üzrə növbəti təqdimat Şuşa qrupuna aid "Açma-yumma" xalçasına həsr olunub.

"Açma-yumma" xalçaları Ağdam rayonunun Xıdırlı, Cəbrayıl rayonunun Papı və Sofulu kəndlərində, XVIII əsrdən bəri isə, həmçinin Şuşa şəhərində onun yaxınlığındakı Xəlfəli, Şırlan kəndlərində və Xocavənd rayonunda toxunulub.

Xalçanın ara sahəsini bir-birinin arxasınca ritmik düzülmüş rombşəkilli, dilikli göllər bəzəyir. Göllərin ətrafındakı açılıb-bağlanan diliklərin quruluşuna görə sənətkarlar bu xalçaları "Açma-yumma" adlandırırlar.

# "Bizim Sayqunumuz var, təəssüf ki, Niyazimiz yoxdur"

## Görkəmli türk bəstəkarı Əhməd Adnan Sayqunun 115 illiyinə

Əhməd Adnan Sayqun Türkiyənin mədəniyyət tarixinə "musiqi beşliyi" kimi daxil olmuş bəstəkarlardan (Camal Rəşid Rey, Hasan Ferit Alnar, Ülvi Cemal Erkin və Necil Akseslə yanaşı) biridir. O, 1907-ci il sentyabrın 7-də İzmirdə dünyaya gəlmişdi. Atası Mahmud Cəlaləddin bəy ixtisasca riyaziyyat müəllimi idi. Həmçinin İzmir Milli Kitabxanasının qurucularından olub.

Adnan kiçik yaşlarından musiqi dünyasının cazibəsi altında idi. Müxtəlif alətlərdə ifa etməyi də özbaşına öyrənmişdi. Əvvəlcə mandalina alətində ifa etməyi öyrənir və sonradan bir virtuoz kimi ud çalmağa başlayır. Musiqi biliklərinə məktəbdə oxuduğu zaman yiyələnir. Müəllimi İsmayıl Zühtidən nəzəriyyə dərsləri alır və onun məktəbdə təşkil etdiyi xorda oxuyurdu. Roşali, daha sonra isə macar əsilli Tevfiq bəydən piano dərsləri alan Adnan bu alətin aşiqinə çevrilir. Gecə-gündüz pianonun başından ayrılmır, əlinə keçən bütün notları hava-su kimi udmağa çalışardı. Onun ilk bəstəkarlıq nümunələri də bu zaman meydana gəlmişdi. 12 yaşında ikən "Maderle peder olub bahane, sevketti kaza beni cihane..." mahnısında ifadə etdiyi həyat və insan taleyi mövzusu sonradan bütün yaradıcılığı boyu əsərlərinin əsas ideyasını təşkil edir.

Adnan Sayqun 1925-ci ildə fransızca "La Grande Encyclopedie"dən musiqi ilə bağlı məqalələri tərcümə edərək bir neçə cildlik musiqi lüğəti hazırlamışdı. Həmin ildə əvvəlcə İzmirdə ibtidai məktəbdə, sonra isə qabiliyyət imtahanı verib Oğlanlar liseyində musiqi müəllimi kimi işləməyə başlayır.

Bəstəkar 1927-28-ci illərdə "Re major simfoniyası"nı bəstələyir. 1928-də dövlətin musiqi istedadı olan gənclər üçün keçirdiyi imtahanda təqaüd qazanaraq təhsil üçün Parisə göndərilir. Parisdə "Schol Contorum"da Vensan d`Endidən kompozisiya dərsləri alır. Təhsil illərində "Divertimentolog" (1930) – dümbək və saksofonlu böyük orkestr üçün əsərini bəstələyir. Əsər Parisdə keçirilən beynəlxalq müsabiqədə mükafat qazanır, sonra Varşavada, eləcə də Rusiya, Belçika və s. ölkələrdə müvəffəqiyyətlə ifa olunur. Bu, Camal Rəşid Reyin Parisdə səslənən üç əsərindən ("Anadolu türküləri", 1927; "Bebek əfsanəsi", 1928; "Türk mənzərələri", 1929) sonra ölkə xaricində ifa olunan 4-cü türk əsəri idi.

1931-ci ildə A.Sayqun Türkiyəyə qayıdır və Musiqi Müəllimləri Məktəbində pedaqoji fəaliyyətə başlayır. 1934-cü ildə ölkə başçısı Mustafa Kamal Atatürkün sifarişi ilə ilk türk operası olan "Özsoy" operasını yazır. Həmin ildə Dövlət Simfonik Orkestrinə dirijor təyin edilir. Atatürkdən yeni bir opera yazmaq tapşırığı alır. 27 dekabr 1934-cü il tarixində Ankarada səhnəyə qoyulan "Taş bebek" operası yeni Cümhuriyyət insanının doğuluşuna həsr olunmuşdu.



1936-1939-cu illərdə İstanbul Bələdiyyə Konservatoriyasında müəllimlik edir. 1936-cı ildə Türkiyəyə gələn macar bəstəkarı Bela Bartokla Anadolunu səyahətə çıxır. Birlikdə türkülərin toplanması və nota alınmasında iştirak edir. Sonra bu işlər "Bela Bartokun Türkiyədəki xalq musiqisi araşdırmaları" adlı kitab şəklində ingilis dilində nəşr olunur.




1939-cu ildə bəstəkar Halkevlərinə (mədəni-maarif ocaqları şəbəkəsi - red.) müfəttiş vəzifəsinə qəbul olunur və bütün Türkiyəni dolaşır. Halkevlerində işi ilə yanaşı, "Türk Musiqi Birliyi" adlı xor kollektivi qurur və bu xorla konsertlər verir. "Halkevlerində musiqi" adlı kitabı çapdan çıxır. "Eski üslubda kantat", "Bir orman masalı" adlı baletləri, "Yunus Əmrə" oratoriyalarını da burada işlədiyi dövrlərdə yazır. Oratoriya 1943-cü il müsabiqəsində Ülvi Camal Erkinin piano konserti və Hasan Ferit Alnarın viola konserti ilə birgə 1-ci yeri qazanır. Onun yaradıcılığının ən məşhur əsəri olan bu bəstəsi daha sonra 1958-ci ildə Parisdə, BMT-nin ildönümü münasibətilə konsertdə Leopold Stokovskinin dirijorluğu ilə ifa olunur. Bu uğurlu işindən sonra bəstəkar Londona, Parisə dəvətlər alır, konfranslar təşkil edir.

A.Sayqun "Yunus Əmrə" oratoriyasından sonra "Kərəm", "Koroğlu", "Gilqameş" operaları, "Atatürk və Anadoluya dastan" xor əsəri, 5 simfoniya, konsertlər, orkestr, xor, vokal və instrumental əsərlər bəstələyir, həmçinin musiqiyə dair kitablar, məqalələr yazır.

O, 1955-ci ildə Folklor Tədqiqatları İnstitutunu yaradanlardan biri olub, 1964-72-ci illərdə Ankara Konservatoriyasında kompozisiya, sonradan İstanbul Konservatoriyasında etnologiya və kompozisiya dərsləri verir. Bəstəkar 1971-ci ildə Türkiyənin "Dövlət sənətçisi" fəxri adına layiq görülür. Türkiyə musiqi mədəniyyətinə verdiyi töhfələrə görə 1985-ci ildə "sənətçi professor" adı da alan görkəmli bəstəkar 1991-ci ilin 6 yanvarında vəfat edib.




***

Türk mədəniyyət və elm xadimləri ilə maestro Niyazi arasında sıx yaradıcılıq əlaqələri olub. Niyazini Adnan Sayqunla da yaradıcılıq və dostluq telləri birləşdirib. Onların tanışlığı 1963-cü ilə təsadüf edir. Həmin il Niyazi türk bəstəkarları Adnan Sayqun və Camal Erkinin müəllif konsertlərində iştirak edir. Maestronun məharətli idarəsi ilə yanvarda Bakıda, fevralda Moskvada A.Sayqunun III simfoniyası və fortepiano konserti, C.Erkinin II simfoniyası və skripka ilə orkestr üçün konserti səslənir. Əsərlər musiqi ictimaiyyəti və dinləyicilər tərəfindən böyük maraqla qarşılanır.

1963-cü ilin axırlarında isə Niyazi Türkiyəyə gedir və Ankara Dövlət Simfonik Orkestrinin və Opera Teatrının kollektivləri ilə yaradıcılıq ünsiyyətində olur. Onun dirijorluğu ilə A.Sayqunun III simfoniyası, fortepiano konserti də səslənir. Fortepiano konserti Türkiyədə ilk dəfə ifa edilirdi.

A.Sayqun yazırdı: "Niyazi ölkəmizə gəlmiş ilk sovet dirijorudur. Onun ecazkar istedadı və böyük bədii erudisiyası var. Mən bunu Sovet İttifaqına səfərim zamanı gözəl sənətkarın ifaçılığını görərkən yəqin etmişəm. Əsərlərimi başa düşdüyünə və ustalıqla ifa etdiyinə görə Niyaziyə səmimi minnətdarlığımı bildirmək istəyirəm. Niyazinin çıxışlarından aldığımız əsl zövqə görə ona təşəkkür edir və sovet musiqisinin elçisi kimi onu salamlayıram".

Musiqi tənqidçisi Orxan Tanrıqulu maestro haqqında yazmışdı: "Hansısa səbəbə görə isə Niyazinin çıxışlarını dinləyə bilməyənlər məni, sözün əsl mənasında, məyus etmişlər. Çünki, kim bilir, musiqisi belə başa düşülmüş, belə ilham və dərinliklə ifa edilmiş Çaykovskini biz bir də nə vaxt eşidəcəyik?"

1973-cü ildə Niyazi yenidən Türkiyəyə dəvət alır. İstanbulda Beynəlxalq musiqi festivalı günlərində onun rəhbərliyi altında A.Sayqunun "Koroğlu" operası ilk dəfə tamaşaya qoyulur və bəstəkarın "Yunus Əmrə" oratoriyası ilk dəfə ifa edilir. Bu faktın misilsizliyini qeyd etmək lazımdır. Türkiyə bəstəkarının vətənində onun musiqisinin ilk ifası Niyaziyə etibar edilmişdi. Bununla əlaqədar A.Sayqunun dediyi sözlər olduqca maraqlıdır: "Mənə İstanbulda keçiriləcək musiqi festivalı münasibətilə "Koroğlu" operasını yazmaq təklif ediləndə, irəli sürdüyüm ilk və təbii şərt bu oldu ki, operanın tamaşaya hazırlanmasında musiqi rəhbərliyi üçün Niyazi dəvət edilməlidir. Mən bu gözəl sənətkarın nadir istedadını yüksək qiymətləndirirəm, onu zəmanəmizin ən böyük dirijorlarından biri sayıram".

Adətən bir dirijorun səviyyəsinin yüksəkliyini göstərmək üçün onun hər hansı bəstəkarın duyğu və düşüncələrini dəqiq şəkildə dinləyiciyə çatdırmasından bəhs edilir. Lakin Niyazi qeyri-adi bir dirijor olduğu üçün o, çox vaxt ifa etdiyi əsərdə bəstəkarın özünün də təxmin etmədiyi dərin məna və gözəllikləri hiss edib aşkara çıxararaq dinləyiciyə təqdim edir, beləcə, əsərin müəyyən dərəcədə həmmüəllifinə çevrilirdi. Niyazi yaradıcılığının bu özəlliyinə görə türkiyəli bəstəkarlar öz əsərlərinin yozumunu ona etibar edirdilər. Bunu onlar özləri də etiraf etmişlər.

A.Sayqunun "Koroğlu" operasını və "Yunus Əmrə" oratoriyasını Niyazinin ustalıqla təfsir etməsi İstanbulda beynəlxalq musiqi festivalının mərkəzi hadisəsinə çevrilir.

Türkiyənin görkəmli musiqi xadimi, bəstəkar və nəzəriyyəçi Bülənt Tərcan yazırdı: "Bizim öz Adnan Sayqunumuz var, lakin, təəssüf ki, öz Niyazimiz yoxdur. Opera sənətimiz adından, bütün türk musiqisi adından mən Niyaziyə hədsiz minnətdarlığımı bildirmək və demək istəyirəm: yaşa, min yaşa, Niyazi!".

**Rza Bayramov,**
**Niyazinin Mənzil-Muzeyinin müdiri, Əməkdar mədəniyyət işçisi**

**Xanım Abdinova**
**Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin şöbə müdiri**

# Koperniklə başlanan müasir astronomiyanın ilk təməlçisi

Türk dünyasının bəşəriyyətin elm və mədəniyyət xəzinəsinə dəyərli töhfələr verən simalarından biri də Əbu Reyhan əl-Biruni olub. Görkəmli alim tarix, təbiət elmləri, etnoqrafiya, riyaziyyat, astronomiya, mineralogiya ilə bağlı 150-dək tədqiqat əsəri yazıb. Bu əvəzsiz töhfələr sonralar sözügedən elm sahələrinin inkişafına təkan verib.

Əbu Reyhan Muhəmməd ibn Əhməd əl-Biruni 4 sentyabr 973-cü ildə Xarəzmşahlar dövlətinin paytaxtı Kayat şəhərində sənətkar ailəsində dünyaya göz açıb. Erkən çağlardan elmə maraq göstərib. Araşdırmalarda qeyd edilir ki, o, 22 yaşında astronomik ölçülər aparmağa səy göstərir. Bir müddət sonra yaxın-uzaq ölkələrə səyahətə çıxır, Xəzər dənizinin şərq və cənub sahillərindəki ölkələri, Mərkəzi Asiyanın böyük hissəsini öyrənir. Türk xalqlarının yaşadıqları ərazilər, onların adət-ənənə və mərasimləri barədə ətraflı məlumatlar toplayır. Pəncaba etdiyi səyahət zamanı isə hind elminə və mədəniyyətinə dair xeyli material toplayır.

Biruni 10 ildən sonra Xarəzmə dönür və hörmətlə qarşılanır. Ona elmi araşdırmalar aparması üçün şərait yaradılır. Araşdırmalarda qeyd edilir ki, o, Xarəzmin tanınmış alimlərindən İbn Sina ilə əlaqə saxlayır. Onunla Aristotel fizikası və bir çox təbiət elmləri ilə bağlı məsələlər haqda müzakirələr aparır. Aristotelin bəzi traktatlarını tənqid edir. İbn Sina isə Aristoteli müdafiə edir.

Əl-Biruni empirik müşahidələr əsasında Hindistana həsr etdiyi əsərində ilk dəfə Yerin Günəş ətrafında hərəkətini və dünyanın hərəkətsiz deyil, dönən bir kütlə olduğunu qeyd edir. Beləliklə, o, beş əsr sonra məşhur polyak astronomu Koperniklə başlayan müasir astronomiyanın ilk təməllərini qoyur. Alim Orta Asiyanın topoqrafiyasına dair əsərində Amu-Dərya çayının bir neçə dəfə öz yatağını dəyişdiyini qeyd edib. Dünyanın bir çox yerlərinin, o cümlədən Azərbaycanın o zaman məlum olan Bakı, Dərbənd, Bərdə, Beyləqan, Təbriz, Ərdəbil kimi şəhərlərinin enlik və uzunluq dairələrini göstərib.

Görkəmli alim cisimlərin sıxlığını təyin edən cihaz düzəldir, "Xüsusi çəki" kitabında onun təsvirini verir. Araşdırmalarda qeyd edilir ki, bu xüsusi bir qab içərisinə salınan cismin həcminə uyğun çıxarılan suyun həcmini dəqiq ölçmək üçün nəzərdə tutulub. Həmçinin mayelərdə xüsusi çəkini ölçmək üçün bir cihaz düzəldir. Bu cihazın köməyi ilə suyun soyuq və isti hallarda, şirin və duzlu suların xüsusi çəkilərini təyin edir. Göstərir ki, suyun sıxlığı ilə onun xüsusi çəkisi arasında bir asılılıq mövcuddur.

"Müqayisəli çəki" adlı kitabında isə substansiyanın müqayisəli çəkisinin onun kimyəvi xassələri ilə əlaqəsinə aydınlıq gətirib. "Coğrafi kəşflərin tarixi və səyyahlar" kitabında qeyd edilir ki, Biruni 995-ci ildə Yer kürəsinin modelini hazırlamağa başlayıb. Bu, müxtəlif şəhər, kənd və coğrafi obyektlərin yerini dəqiq təyin etmək üçün diametri təqribən 5 metrə yaxın olan ilk relyefli qlobus olub...

1017-ci ildə Xorasan və Əfqanıstan hakimi Sultan Mahmud Xarəzmi işğal edir. Yüzlərlə alim və sənətkar Əfqanıstana aparılır. Əsirlər arasında Biruni də olur. O, 13 il Qazte şəhərində yaşayır, şəraitin ağır olmasına baxmayaraq elmi işini davam etdirir. Coğrafiya və astronomiyaya aid əsərlər üzərində işləyir. Elə bu ərəfədə Biruninin vəziyyəti ağırlaşır. Həmin vaxt hakimiyyətə Sultan Mahmudun oğlu Məsud keçir. O, Biruniyə və digər alimlərə xeyirxah münasibət bəsləyir. Alimlər də Məsuda astronomiya və sferik triqonometriyaya aid əsərlər həsr edirlər.



Əbu Reyhan əl-Biruni ömrünün son illərində yazdığı daha bir kitabda müxtəlif minerallar, qiymətli daşların mənşəyi, xarakteri və mədənləri haqqında geniş söhbət açır. Ensiklopedik bilik sahibi olan alim 13 dekabr 1048-ci ildə vəfat edib.

**Savalan Fərəcov**

# Filmin yaradılma prosesi onun üçün daxili aləminin təzahürü idi...

## Kinorejissor Teymur Bəkirzadə xatirələrdə

Aktyorları rolları, rejissorları filmləri məşhurlaşdırır. Əməkdar incəsənət xadimi Teymur Bəkirzadəni çoxumuz quruluş verdiyi "Yol əhvalatı" kinokomediyasından tanıyırıq. Əslində isə onu kinosevərlərə tanıdacaq səbəb daha çoxdur. Azərbaycan kinosunda fərdi dəst-xəttinə görə seçilən rejissorun anadan olmasının 81-ci ildönümündə (14.09.1941-21.09.1995) xatirəsini ehtiramla yad edərək, qızı Mədinə xanımın və həmkarlarının söhbətlərindən şəxsiyyəti, sənətkarlıq xüsusiyyəti haqqında ətraflı məlumatları oxucularla da bölüşmək istəyirik.

Teymur Bəkirzadənin uşaqlığı həmyaşıdları kimi müharibə illərinə təsadüf edib. Atası İkinci Dünya müharibəsindən qayıtmayıb, anası evdar qadın olub. Uşaqlıq və gənclik illəri ağır keçən yeniyetmə idmanı və incəsənəti həyatının mənasına çevirib, yüngül atletikada beşnövçülük üzrə məşğul olub. Həmin illərdə SSRİ üzrə keçirilən bir çox yarışlarda iştirak edib, medallarla təltif olunub. Rejissorluq fəaliyyətində də idmana həsr etdiyi sənədli filmlərlə böyük uğurlar əldə edib.

Rejissor kimi ilk sənədli filmi isə Xalq rəssamı Toğrul Nərimanbəyov haqqında olub. Bundan sonra 40-a yaxın müxtəlif mövzulu, o cümlədən bioqrafik ("Axtarış həvəsi", "Fəhlə Gülbala Əliyev" və s.), idman ("Futbol, futbol…", "Taca doğru addım" və s.), tarixi ("Abşeron qalaları", "Bakı-Neapol qardaşdırlar" və s.), sosial ("Həyat yolu" və s.) janrlı sənədli filmlər ərsəyə gətirib, bir sıra ekran əsərlərinin ssenarisini yazıb. Bədii kinoda isə "Ömrün səhifələri" kinoalmanaxından "Rəqiblər" novellasına, "Çətirimiz buludlardır" (Nicat Bəkirzadə ilə birgə), "Yol əhvalatı", "Ləqəbi "İKA"dır" (Amin Novruzovla birgə) bədii filmlərinə quruluş verib, "Mozalan" kinojurnalı üçün qısametrajlı bədii süjet ("Arzu") çəkib.

Rejissorun "Dissonans" sənədli filmi kino ictimaiyyətinin böyük marağına səbəb olub. Bu uğurun səbəbini filmin operatoru olmuş Əməkdar incəsənət xadimi **Hüseyn Mehdiyevdən** öyrənirik: "1977-ci ildə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunu bitirib "Azərbaycanfilm"ə yeni gəlmişdim. Teymur məni Azərbaycan qadın həndbolçuların komandasına həsr olunmuş sənədli filmdə işləməyə dəvət etdi. Amma ilk çəkilişlərin nəticələrinə baxdıqdan sonra filmin ideyasını dəyişdirdi və idmanda baş verən proseslərdə qadın gözəlliyinin, incəliyinin bu mübarizədə həmçinin sərtlik, kobudluqla əks mütənasibdə olduğunu göstərməyi əsas götürdü.

Həmin il Teymur Bəkirzadə ilə birlikdə həndbolçuların Kaunas, Sverdlovsk, Kiyev və Bakıda keçirilən dörd yarış turunda iştirak etdik. Hər turda 6-7 oyun olmaqla bütün oyunları izlədik və "gizli kamera" ilə hamısını çəkdik. Təsəvvür edin ki, "Konvas" kinokamerası ştativdə, bir əlim fokusu tutmaq üçün uzunfokuslu (300 mm) obyektivdə, bir əlim isə kameranı işə salan düymədə olurdu, gözümü isə vizirdən (kameranın gözlüyündən) çəkmirdim. Teymur yanımda durub oyunu diqqətlə izləyir, nəzərini mənim görə bilmədiyim səhnələrə və epizodlara yönəldirdi ki, oyunda maraqlı məqamları buraxmayaq. Maraqlı anları tutmaq, çəkmək əvvəlcə çətin idi. Amma bir neçə oyunu izlədikdən sonra mən artıq təxmin edirdim ki, hansı oyunçu meydanın hansı yerində maraq doğuracaq nə edə bilər. Beləcə, bütün oyunları çəkdik.



Teymur Bəkirzadə (solda) və operator Hüseyn Mehdiyev

Teymur çox təmkinli idi. İnstitutu yeni bitirmiş çılğın və tərs təsvir rejissoruna (yəni mənə) əməlli-başlı "dözürdü". Etiraf edim ki, mənim "gizli kamera" ilə çəkdiyim materiallar olmasaydı, film istədiyimiz kimi alınmayacaqdı. Eyni zamanda Teymur idmanı və idmançıların psixologiyasını dərindən bilməsəydi, onların keçirdiyi hissləri yaşamasaydı, hadisələri kino dilində, harmonik formada filmə çevirmək bacarığı olmasaydı, "Dissonans" da alınmazdı... Onun peşəkarlığı materialların, səslərin düzümündə, filmin dramaturji quruluşunda düzgün seçim etməyə imkan verdi. Nəticədə harmonik, reportaj xarakterli, bədii səviyyəli əsər yarandı.





"Dissonans" filmi kinofestivallarda müxtəlif mükafatlara, həmçinin Leninqradda (Sankt-Peterburq) VII Ümumittifaq idman filmləri kinofestivalında qızıl medala (1979), Aşqabadda XII Ümumittifaq kinofestivalında parlaq, dinamik kinoreportaja görə münsiflər heyətinin diplomuna (1979), Moskvada idman jurnalistlərinin Ümumdünya Assosiasiyasının mükafatına (1980), Budapeştdə qısametrajlı filmlər festivalında bürünc medala (1982) layiq görülüb.

Münsiflər heyətinin sədri məşhur kinorejissor Rostotski bizim filmi nəzərdə tutaraq demişdi ki, "Bu, bir filmin festivalıdır...". Bu filmdən sonra məni 1980-ci ildə Moskvada keçirilən Olimpiadanın çəkilişlərinə dəvət etdilər...

Teymur öz istedadını sonralar bədii filmlərində də göstərdi və xalq tərəfindən sevilən "Yol əhvalatı" filmini (1980) yaratdı. "Yaratdı" sözünü əminliklə deyirəm, çünki Teymur zahirən təmkinli görünsə də, daxilən çox emosional, hissiyyatlı insan idi, filmin yaradılma prosesi onun üçün daxili aləminin təzahürü, ekran vasitəsilə üzə çıxması demək idi...".

Rejissorla tanışlığımızı Xalq artisti, aktrisa **Həmidə Ömərova** ilə davam etdiririk: "Yol əhvalatı" filminə çəkilməyim təsadüfi oldu. Həmin illərdə Ümumittifaq Kinematoqrafiya İnstitutunu yeni bitirmişdim. Kinorejissorlar məni baş rollara dəvət edirdilər. Teymur müəllim də Zümrüd obrazını mənə həvalə etdi. Filmdə çəkilməzdən əvvəl mənə məsləhət gördülər ki, onun çəkdiyi "Dissonans" filminə baxım. Film birnəfəsə izlənilir, çox bəyəndim, "Yol əhvalatı"nda da məmnuniyyətlə çəkildim. Filmə dəfələrlə baxmışam və oradakı bir çox ifadələrin insanlar arasında bir növ zərbməsələ çevrildiyinin də şahidi olmuşam.

Teymur müəllim aktyorlara tam sərbəstlik verirdi. Deyirdi ki, rolu oynayan zaman kim olduğunuzu unudun, özünüzü obrazın yerinə qoyun. Personajın vəziyyətində olsaydınız, necə edərdinizsə elə də edin, davranın. Buna görə də aktyorlar çox improvizə edirdilər. Bu da rejissorun düzgün aktyor seçimindən, doğru mizan verməsindən, hər şeyi ölçüb-biçməsindən irəli gəlirdi ki, quruluşları filmlərinə baxımlılıq gətirirdi...".

Rejissorun qızı **Mədinə Bəkirzadənin** xatirələrindən: "Atam tez-tez məni çəkiliş meydançasına aparırdı. Orda işinə necə ürəkdən yanaşdığını görürdüm. Yumor hissi güclü idi. Zarafatları məntiqli və yaddaqalan olurdu. Amma ailədə çox ciddi idi, sərtliyi də vardı. Hər hansı bir ssenarini oxuyanda ona söz deyə bilməzdik. İdmanı çox sevirdi, bizə də sevdirirdi. Anam musiqi müəlliməsi idi. Mülayim xasiyyəti vardı. Atama qarşı çox həssas idi. Atam köhnə məhəllələrin birində film çəkdiyi zamanı onu görmüşdü, tanış olub evlənmişdilər. Anamla ailə qurmazdan əvvəl atam Tatyana adlı xanımla evli olub. Atam onunla Moskvada Ali Rejissorlar Kursunda oxuyanda tanış olub. Ali məktəbi bitirdikdən sonra (1974) özü ilə Bakıya gətirib. Tatyana xanım bir müddət kinostudiyada redaktor kimi çalışıb. Bu izdivacdan oğlanları Bəkir dünyaya gəlib. Mən BDU-nun Tarix fakültəsini bitirmişəm, Bəkir isə səs operatoru kimi çalışırdı. Həmişə kinostudiyada atamın yanında olurdu. Atam uzun müddət qaraciyər xərçəngi xəstəliyindən müalicə aldı, faydası olmadı. Anam isə bu il rəhmətə getdi. O da xərçəng xəstəliyindən əziyyət çəkirdi...".

Vaxtsız ölüm Teymur Bəkirzadəyə sonuncu filmini ("Ləqəbi "İKA") tamamlamağa imkan verməyib. Həmkarının işini tamamlayan kinooperator, Əməkdar incəsənət xadimi **Amin Novruzov** yaxın keçmişi belə xatırlayır: "Teymurla 1969-cu ildə kinostudiyada tanış oldum. Bu illər ərzində onu gözəl insan, dərin biliyə malik rejissor kimi tanıdım. Dostları ilə həmişə yaxşı münasibətdə idi. Buna görə də hamı onun hörmətini saxlayırdı.

"Ləqəbi "İKA"dır filmini çəkəndə məni operator kimi filmdə işləməyə dəvət etdi. Film "Büllur" kommersiya bankının maliyyə dəstəyi ilə çəkilirdi. Çəkilişlərə dörd ölkədən (Azərbaycan, Rusiya, Belarus, Türkmənistan) tanınmış aktyorlar cəlb olundu. Teymur həmişə filmin rəssamı Mayis Ağabəyovla, mənimlə məsləhətləşirdi. Birlikdə Belarusa getdik, çəkəcəyimiz məkanları axtarıb tapdıq. Vəsait çatmadığına görə natura çəkilişlərini çəkə bilmədik. Həmin yerlərə bənzər məkanı İsmayıllı rayonunun İvanovka kəndində çəkdik. Orda rus qəbiristanlığı, poliklinika səhnəsini lentə aldıq.

Çəkilişlərin birində Teymurun burnundan qan gəldi. Düşündük ki, tez keçər. Amma görəndə ki, vəziyyəti pisləşir təcili yardım çağırdıq. Onu xəstəxanaya aparanda gedə-gedə mənə tapşırdı ki, "filmi saxlama, qalan epizodları mütləq çək...". Filmin doxsan beş faizi çəkilmişdi. Teymur hərdən gəlib mərhələ-mərhələ filmin montajını da edirdi. Bir gün eşitdik ki, dünyasını dəyişib. Allah ona rəhmət eləsin.

Bir müddət sonra digər bir filmi Belarusa aşkarlamağa aparmışdım. Kinostudiyanın direktorunun yanına getdim və yarımçıq qalan film haqqında ona danışdım. Filmin səsini yazmaq, bəzi çəkilişləri tamamlamaq lazım olduğunu dedim. O, da "Mədəniyyət naziri ilə danışım, razı olsa, filmin qalan hissəsini müştərək tamamlayarıq" dedi. Aşkarlama üçün bir həftə orda qalmalı oldum. Bir gün mənə dedilər ki, kinostudiyanın direktoru səni çağırır. Onunla görüşəndə nazirin, filmin qalan hissəsini müştərək çəkməyimizə razı olduğunu bildirdi. Bakıya qayıdanda filmin sponsorundan (bankın rəhbərliyindən) razılıq alıb bütün materialları Belarusa apardım. İki ay yarım orda qalıb filmi tamamladım. Film böyük ruh yüksəkliyi ilə qəbul olundu. Hətta biz orda olarkən başqa şəhərlərdən nüsxələri almaq üçün sifarişlər də gəlirdi. 10 gün sonra məni festivala dəvət etdilər. Filmə "Listopad" Beynəlxalq kinofestivalında (Minsk) MDB İcraiyyə Komitəsinin mükafatı verildi.

Mən sevinirəm ki, Teymurun yarımçıq qalmış filmini kollektivlə birlikdə tamamlamaqla onun ruhunu şad etdik. Amma yenə də düşünürəm ki, Teymur özü sağ olsaydı, bu filmi daha da yaxşı bitirərdi...".

**Şəhla Əmirli**
**kinoşünas**

## Xatirə təqvimi 14-16 sentyabr

### Azərbaycan

**14 sentyabr 1880** – Yazıçı İbrahim Mehdi bəy oğlu Musabəyov (1880-1942) Qəbələdə anadan olub. Yazıçının "Neft və milyonlar səltənətində" povesti əsasında 1916-cı ildə Azərbaycanın ilk tammetrajlı bədii filmi çəkilib. Qazaxıstanın Karaqanda şəhərində sürgündə vəfat edib.

**14 sentyabr 1911** – Şair, dramaturq, ədəbiyyatşünas Müzəffər Qasım oğlu Nəsirli (1911-1980) Naxçıvan MR Şahbuz rayonunun Sələsüz kəndində anadan olub.

**14 sentyabr 1939** – Yazıçı-dramaturq Aslan Qəhrəman oğlu Qəhrəmanlı (1939 – 19.1.2014) Ağstafa rayonunun Yenigün kəndində doğulub. Televiziyada ekranlaşdırılmış "Səni axtarıram", "Bağışla" və "Səndən xəbərsiz" pyeslərinin, povest və hekayələrin müəllifidir.

**14 sentyabr 1939** – Əməkdar artist, vokal ifaçısı İsmayıl Sadıq oğlu Ələkbərov (1939-2021) Bakıda doğulub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının muğam bölməsinin solisti olub.

**14 sentyabr 1941** – Əməkdar incəsənət xadimi, kinorejissor Teymur Bəkir oğlu Bəkirzadə (1941 – 21.9.1996) Bakıda doğulub. "Azərbaycanfilm" Kinostudiyasında sənədli və bədii filmlərə ("Rəqiblər", "Yol əhvalatı") quruluş verib.

**14 sentyabr 1949** – Əməkdar artist Sona Qədir qızı Mirzəyeva (1949-1985) Bakıda doğulub. İrəvan Azərbaycan, Naxçıvan teatrlarının aktrisası olub.

**14 sentyabr 1992** – Xalq şairi Hüseyn Arif (Hüseynzadə Hüseyn Camal oğlu; 15.6.1924 – 1992) vəfat edib. Azərbaycan Aşıqlar Birliyinin sədri olub.

**14 sentyabr 1992** – Əməkdar artist, vokal ifaçısı (bariton) Əli Həsən oğlu Haqverdiyev (29.7.1939 – 1992) vəfat edib. Azərbaycan Akademik Opera və Balet Teatrının solisti olub, filmlərdə çəkilib.

**14 sentyabr 2017** – Əməkdar incəsənət xadimi, ustad saz ifaçısı, aşıq Ədalət Məmmədəli oğlu Nəsibov (27.1.1939 – 2017) vəfat edib.

**14 sentyabr 2021** – Əməkdar artist, tanınmış müğənni, bəstəkar Yaqub Zurufçu (8.4.1956 – 2021) vəfat edib.

**15 sentyabr 1905** – Azərbaycanda kukla teatrının yaradıcısı, aktyor, rejissor Molla Ağa Bəbirli (1905 – 22.10.1970) Bakıda anadan olub. "O olmasın, bu olsun", "Bir məhəllədən iki nəfər", "Sehrli xalat" filmlərində çəkilib, Akademik Dram Teatrında çıxış edib.

**15 sentyabr 2006** – Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Zülfüqar oğlu Adıgözəlov (28.7.1935 – 2006) vəfat edib. Azərbaycan Bəstəkarlar İttifaqının sədri olub.

**15 sentyabr 2007** – Xalq rəssamı Elbəy Mirzə Həsən oğlu Rzaquliyev (17.6.1926 – 2007) vəfat edib. "Telefonçu qız", "Arşın mal alan" (1965), "Gün keçdi", "Arxadan vurulan zərbə" və s. filmlərin rəssamı olub.

**15 sentyabr 2021** – Əməkdar artist, tanınmış arfa ifaçısı Çiçək Məmmədhüseyn qızı Rzayeva (13.6.1944 – 2021) vəfat edib.

**16 sentyabr 1909** – Azərbaycanın ilk kino aktrisalarından olan İzzət Mirzəağa qızı Orucova (1909 – 22.4.1983) Bakıda doğulub. "Sevil" (1929), "Almaz" (1936) filmlərində baş rollarda çəkilib. Sonralar tanınmış kimyaçı alim, Azərbaycan Elmlər Akademiyasının akademiki olub.

**16 sentyabr 1934** – Əməkdar incəsənət xadimi, pianoçu, professor Elmira Yusif qızı Səfərova (1934-1997) Bakıda anadan olub.

**16 sentyabr 2000** – Əməkdar incəsənət xadimi, rejissor Nazim Hüseynqulu oğlu Abbasov (14.12.1938 – 2000) vəfat edib. Bədii ("Dvorjakın melodiyası"), sənədli və televiziya filmlərinin rejissoru olub.

**16 sentyabr 2002** – Tanınmış aktyor Bahadur Atabala oğlu Əliyev (24.2.1933 – 2002) vəfat edib. "Ulduz", "Böyük dayaq" və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**16 sentyabr 2021** – Əməkdar mədəniyyət işçisi, dirijor Nizami Tahir oğlu Məmmədov (21.9.1947 – 2021) vəfat edib.

### Dünya

**14 sentyabr 1321** – İtalyan şairi Dante Aligyeri (Dante Alighieri; 15.5.1265 – 1321) vəfat edib. İntibah ədəbiyyatının şah əsərlərindən olan "İlahi komediya" poemasının müəllifidir. Axirət dünyasına səyahəti təsvir edən poema üç hissədən ("Cəhənnəm", "Əraf", "Cənnət") ibarətdir.

**14 sentyabr 1618** – Holland əsilli ingilis rəssamı Piter Leli (Peter Lely - Pieter van der Faes; 1618-1680) anadan olub.

**14 sentyabr 1898** – Rus aktyoru, SSRİ Xalq artisti Mark Prudkin (1898-1994) anadan olub. Filmləri: "Karamazov qardaşları", "On iki stul" (1976) və s.

**15 sentyabr 1789** – Amerika yazıçısı Ceyms Fenimor Kuper (James Fenimore Cooper; 1789 – 14.9.1851) anadan olub. Tarixi və macəra romanlarının müəllifidir: "Casus", "Dəniz qulduru", "Losman", "Sonuncu mogikan", "Ləpirçi" və s.

**15 sentyabr 1890** – İngilis yazıçısı, detektiv əsərlərin müəllifi Aqata Kristi (Agatha Mary Clarissa; 1890 – 12.1.1976) anadan olub. Əsərləri: "Rocer Ekroydun qətli", "Yarımçıq portret", "Şərq ekspressində qətl", "Nildə ölüm" və s.

**15 sentyabr 1894** – Fransız kinorejissoru, "Oskar" laureatı Jan Renaur (1894–1979) anadan olub. Filmləri: "Böyük illüziya", "Marselyoza", "Fransız kankanı" və s.

**15 sentyabr 1914** – Türk yazıçısı Orxan Kamal (Mehmet Raşit Öğütçü; 1914 – 2.6.1970) Adananın Ceyhan qəsəbəsində doğulub. "Baba evi", "Cəmilə", "Yad qızı", "Qürbət quşları" kimi romanları, "Çörək davası", "Arxa küçə" və s. hekayələri yazıçıya geniş oxucu rəğbəti qazandırıb.

**15 sentyabr 1925** – Rus aktyoru, SSRİ Xalq artisti Kirill Lavrov (1925-2007) anadan olub. Filmləri: "Dirilər və ölülər", "Karamazov qardaşları", "Odun ram edilməsi" və s.

**16 sentyabr 1462** – İtalyan filosofu Pyetro Pomponassi (Pietro Pomponazzi; 1462-1525) anadan olub.

**16 sentyabr 1888** – Finlandiya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1939) laureatı Frans Emil Sillanpyya (Frans Eemil Sillanpaa; 1888-1964) anadan olub. Əsərləri: "Həyat və günəş", "Adamlar yay gecəsində", "Cavanlığında vəfat etmiş".

**16 sentyabr 2016** – Məşhur türk kinoaktyoru, yazar Tarık Akan (Tarık Tahsin Üregül; 13.12.1949 – 2016) vəfat edib.

**Hazırladı: Vüqar Orxan**

# Kitabxana Çəmənzəminlinin 135 illiyi münasibətilə materiallar hazırlayıb

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşları tərəfindən görkəmli yazıçı, diplomat Yusif Vəzir Çəmənzəminlinin (12.9.1887 – 3.1.1943) anadan olmasının 135-ci ildönümü münasibətlə silsilə materiallar – videoçarx, virtual kitab sərgisi və biblioqrafik siyahı hazırlanıb.

Videomaterial və virtual sərgidə yazıçının həyat və yaradıcılığı haqqında məlumat əksini tapıb. Materiallarda ədibin "Qızlar bulağı", "Bir gəncin dəftəri" və s. əsərlərinin qısa məzmunu ilə yanaşı, "İki od arasında", "Studentlər" romanları haqqında da məlumat verilir. Biblioqrafik siyahıda isə Çəmənzəminlinin 10-dan çox kitabının biblioqrafik təsviri, görkəmli şəxslərin onun haqqında söylədikləri fikirlər yer alıb.

Materiallar Gənclər Kitabxanasının saytında yerləşdirilib.

Yusif Vəzir Çəmənzəminli zəngin bədii yaradıcılığı ilə yanaşı diplomatik fəaliyyəti ilə də tanınıb. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda səfiri olub, sonra mühacirətdə yaşayıb, 1926-cı ildə Azərbaycana qayıdıb. 1940-cı ildə həbs olunub, Rusiyanın Nijni-Novqorod vilayətində həbs düşərgəsində vəfat edib.

# "Vətən sevdalısı" – şəhid polkovnik-leytenant haqqında kitab

Yazıçı-publisist Pünhan Əfəndiyevin Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Əfqan Abdurahmanov haqqında yazdığı "Vətən sevdalısı" kitabı çapdan çıxıb.

Kitabda Əfqan Abdurahmanovun həyatından, hərbi xidmət illərindən, 2020-ci ilin 44 günlük Vətən müharibəsindəki döyüş yolundan, Vətənə, torpağa sədaqətindən, yaxınlarının və döyüş yoldaşlarının xatirələrindən bəhs edilir.

Azərbaycan Ordusunun polkovnik-leytenantı Əfqan Abdurahmanov 2020-ci il oktyabrın 10-da Suqovuşanda şəhid olub. Qəbələ rayonunun Əmirvan kəndində dəfn edilib.

# Mədəniyyət mövzusunda yeni nəşr

Tanınmış ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru, publisist, tərcüməçi Rasim Nəbioğlunun "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" adlı kitabının ikinci cildi (birinci cild 2017-ci ildə çapdan çıxıb) işıq üzü görüb.

Kitabda müəllifin müxtəlif illərdə yazdığı ədəbi-tənqidi, nəzəri-estetik, publisistik məzmunlu yazıları toplanıb. Kitabın "Ölüm sevinməsin qoy..." bölməsində isə Azərbaycanın mədəniyyət, elm, ədəbiyyat, incəsənət sahəsində şöhrət qazanmış mərhum şəxsiyyətləri haqqında xatirə yazıları yer alır. Yazıların əksəriyyəti vaxtilə dövri mətbuatda, elmi nəşrlərdə işıq üzü görüb, bir qismi isə ilk dəfə çap olunur.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi Rasim Nəbioğlu (Rasim Nəbi oğlu Qurbanov) Hüseyn Cavid irsinin araşdırıcılarındandır. "Hüseyn Cavidin estetik idealı" mövzusunda dissertasiya müdafiə edib.

2007-2015-ci illərdə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzində elmi katib, şöbə müdiri, "Müasir mədəniyyətşünaslıq" jurnalının elmi redaktoru işləyib. 20-yə yaxın ədəbi, elmi, publisistik, tərcümə kitabının müəllifi və tərtibçisidir.

№67 (1940)
14 sentyabr 2022
www.medeniyyet.az

# 23-cü TÜRKSOY Opera Günləri Fikrət Əmirovun 100 illiyinə həsr edilib

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un ənənəvi layihələrindən olan Opera Günləri növbəti dəfə sənətçiləri bir araya gətirəcək.




23-cü TÜRKSOY Opera Günləri Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin də dəstəyi ilə 15-21 sentyabr tarixində Türkiyənin Bursa və İzmir şəhərləri ilə yanaşı, Şimali Kiprin Qazimağusa və Girne şəhərlərində də düzənlənəcək.

Qeyd edək ki, TÜRKSOY Daimi Şurası böyük Azərbaycan bəstəkarı Fikrət Əmirovun anadan olmasının 100 illiyi münasibətilə 2022-ci ili "Fikrət Əmirovu anma İli" elan edib. Bu münasibətlə TÜRKSOY-un 23-cü Opera Günləri Fikrət Əmirova həsr olunub. Konsert proqramlarının repertuarında Fikrət Əmirovun əsərlərinə xüsusi yer ayrılıb, həmçinin bəstəkarın həyat və yaradıcılığı ilə bağlı fotosərgi sənətsevərlərə təqdim olunacaq.

Opera Günlərinin açılış mərasimi sentyabrın 15-də "2022 – Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursada baş tutacaq. Proqramda opera müğənniləri azərbaycanlı dirijor, Əməkdar artist Əyyub Quliyevin idarə etdiyi orkestrin müşayiəti ilə sənətsevərlərin qarşısına çıxacaqlar.

Sentyabrın 18-də İzmir səhnəsində təşkil olunacaq konsertdə Türk dünyası bəstəkarlarının opera əsərləri və dünya klassik ariyaları səslənəcək.

Uzun fasilədən sonra bu il TÜRKSOY Opera Günləri Şimali Kiprdə də keçiriləcək. Konsertlər sentyabrın 20-də Qazimağusada "Otello" qalasında, ayın 21-də isə Girne şəhərində Bellapais monastırında gerçəkləşəcək.

23-cü TÜRKSOY Opera Günlərinin konsertlərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Türkiyə, Özbəkistan, Şimali Kipr, Şimali Makedoniyadan sənətçilər iştirak edəcək. Konsert proqramlarında Azərbaycanı Fatimə Cəfərzadə təmsil edəcək.

**Mehparə Sultanova**
**Ankara**

# Həştərxanda klassik musiqi festivalında "Azərbaycan günü"

Xəbər verdiyimiz kimi, sentyabrın 2-dən 11-dək Rusiyanın Həştərxan şəhərində "Opera First – 2022" Beynəlxalq Xəzər Klassik İncəsənət Festivalı keçirilib. İkinci dəfə təşkil olunan festivalın konsert proqramlarında Rusiya, Azərbaycan, İran, Türkmənistan və Qazaxıstan teatrlarının solistləri iştirak ediblər.




Festival çərçivəsində Xəzəryanı ölkələrin günləri keçirilib. Sentyabrın 9-da "Azərbaycan günü" adlı konsert təşkil olunub.

Həştərxan Filarmoniyasının böyük zalında keçirilən konsertin proqramını Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə təqdim edib.

Proqramda Azərbaycan klassikləri Qara Qarayev və Fikrət Əmirovun, eləcə də ölkənin müasir bəstəkarlarının – Firəngiz Əlizadə, Azər Dadaşov, Cəlal Abbasov, Tural Məmmədlinin əsərləri yer alıb.

Əsərləri Ümid Abbasov (skripka), Nəzrin Aslanlı (skripka), Emin Hüseynov (skripka), Rəna Rəhimova (alt), Orxan Hüseynov (violonçel), Zakir Əsədov (fortepiano) ifa ediblər.

Konserti Həştərxanda keçirilən Xəzər mediaforumunda iştirak edən Azərbaycan nümayəndə heyəti, Milli Məclisin üzvləri də izləyiblər.

Rusiya Bəstəkarlar İttifaqı Həştərxan şöbəsinin sədri Konstantin Quzenko çıxışında "Azərbaycan günü" konsertinin gözləntiləri üstələdiyini vurğulayaraq deyib: "Biz Azərbaycanın peşəkar musiqi sahəsində böyük nailiyyətləri olduğunu həmişə bilirdik. Lakin bu gün dinlədiklərimiz qəlbimizin dərinliyinədək bizi riqqətə gətirdi. Təkcə musiqi yox, Firəngiz Əlizadənin gözəl çıxışı da bizi valeh etdi. O çıxışında dünya səviyyəsində uğur qazanmış Azərbaycan bəstəkarlıq məktəbinin şanlı tarixinə maraqlı ekskurs etdi...".

Festivalın yekun qala-konsertində Azərbaycanın tanınmış vokalçısı, Əməkdar artist Azər Rzazadə də çıxış edib.

# Milli mətbəx və mədəniyyətimiz Belarusda təbliğ olunub



Belarusun Qomel şəhərinin 855-ci ildönümü münasibətilə keçirilən Milli Mədəniyyətlər Festivalında Azərbaycan da təmsil olunub.

Şəhərin mərkəzi meydanında keçirilən festivalda Belarusun "Azərbaycan İcmaları Konqresi"nin təşkil etdiyi stenddə mədəni irsimiz, milli mətbəximiz nümayiş etdirilib. Bayramın qonaqları Azərbaycan plovunun, dolmasının, nar şirəsinin, şəkərbura, paxlava, qoğal kimi şirniyyatların dadına baxıblar.

Qomel Vilayət İcraiyyə Komitəsinin sədri İvan Krupko, şəhər İcraiyyə Komitəsinin sədri Pyotr Kiriçenko da sərgini ziyarət edib, Azərbaycanın adət-ənənələri və mədəniyyəti ilə tanış olub, həmçinin Azərbaycan şirniyyatlarından dadıblar.

"Sarı gəlin" rəqs ansamblı "Uzundərə", "Naz eləmə", "Ağ çiçək" və digər xalq rəqslərini ifa edib. Festival iştirakçıları Azərbaycan milli rəqsi "Yallı"nı birlikdə oynayıblar. Stendimizdə Azərbaycanın milli geyimləri və atributları da nümayiş etdirilib.

# Moskvadakı "Azərbaycan" pavilyonunda "iki sevgi şəhəri"



əvvəli səh. 1-də

XTNS-də yerləşən "Moskvanın maketi" pavilyonunda əsas tədbir – "Mədəniyyət körpüləri: Rusiya-Azərbaycan" filminin təqdimatı keçirilib. "Azərbaycan" pavilyonunun direktoru Səadət Qədirova filmdə tamaşaçılara Rusiya və Azərbaycan arasında olan dərin mədəni və tarixi əlaqələrdən söhbət açıb, Moskvanın vaxtilə Azərbaycanda yaşamış şəxsiyyətlərlə bağlı olan tarixi yerlərinə virtual ekskurs keçirilib.

Səadət Qədirova jurnalistlərə müsahibəsində qeyd edib ki, həm Azərbaycana, həm də Rusiyaya mənsub olan dünya miqyaslı şəxsiyyətlər tariximizdə mühüm yer tuturlar: "Mədəniyyət körpüləri: Rusiya-Azərbaycan" filmi belə məşhur şəxsiyyətlər və yerlər barədədir. Biz tamaşaçıları Azərbaycanın Moskvadakı səfirliyinin binası, səfir Polad Bülbüloğlu ilə tanış etdik, Rusiya paytaxtında heykəlləri ucaldılmış dahi şairlər – Nizami və Nəsimi, dünyaşöhrətli müğənni Müslüm Maqomayev barədə danışdıq...".

Festival çərçivəsində təşkil olunan yarmarkalarda iki gün boyunca qonaqlar ənənəvi Azərbaycan çayı ilə Azərbaycan və dağ yəhudiləri mətbəxinin ən gözəl şirniyyat növlərinin dadına baxıb, eləcə də azərbaycanlı istehsalçıların məhsullarını əldə ediblər.

# "Qızıl şir" sənədli filmə verildi

## İtaliyanın Venesiya şəhərində 79-cu kinofestival başa çatıb

Avqustun 31-dən sentyabrın 10-dək davam edən 79-cu Venesiya Film Festivalının mükafatçıları elan olunub. Avropanın ən nüfuzlu üç kinoforumundan (Kann və Berlin festivalı ilə bərabər) biri olan Venesiya Film Festivalının əsas müsabiqə proqramına bu il 23 ekran əsəri daxil edilmişdi.



Amerikalı aktrisa və yazar Culian Murun sədrlik etdiyi münsiflər heyətinin qərarına əsasən, amerikalı rejissor və sənədli filmlərin prodüseri Laura Poitrasın "Bütün gözəlliklər və qanlar" filmi "Ən yaxşı film" nominasiyasında 79-cu Venesiya Film Festivalının "Qızıl şir" mükafatını qazanıb.

Qeyd edək ki, bu, kinofestivalın əsas proqramında yeganə sənədli film olub. Filmdə amerikalı fotoqraf Nan Qoldinin "Purdue Pharma" əczaçılıq şirkətinə dəstək verən Sakler ailəsinə qarşı çıxmasından bəhs edilir. Sözügedən şirkət istifadəçilərdə preparata davamlı bağlılıq yaradan ağrıkəsici (oksikontin) istehsalı ilə məşğuldur.

Fransalı rejissor Alis Diopun "Müqəddəs Ömər" filmi jürinin Qran-pri mükafatına – "Gümüş şir"ə layiq görülüb.

İtaliyalı rejissor, prodüser və ssenarist Luka Quadaqnino "Sümüklər və hamısı" filminə görə "Ən yaxşı rejissor" nominasiyasında mükafata yiyələnib. Həmin filmdə çəkilən kanadalı aktrisa Teylor Rassl perspektiv və aktyorlar üçün nəzərdə tutulan "Marçello Mastroyanni" mükafatına layiq görülüb.

Azərbaycan əsilli məşhur iranlı rejissor Cəfər Pənahinin "Ayılarsız" filmi münsiflər heyətinin xüsusi mükafatını qazanıb. Qeyd edək ki, Cəfər Pənahi hazırda İranda həbsdədir.

İrlandiyalı aktyor Colin Farrell ("İnişerinin ölüm pəriləri" filmi, rejissor Martin Makdonax) və avstraliyalı aktrisa Keyt Blanşett ("Qətran" filmi, rejissor Tod Fild) ən yaxşı kişi və qadın oyunçu kimi "Volpi" kubokunu qazanıblar.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 201 il əvvəl...

**15 sentyabr 1821-ci ildə** Mərkəzi Amerika ölkələri Honduras və Nikaraqua İspaniya müstəmləkəçiliyinə qarşı müharibə gedişində müstəqilliyini elan edib. Hər iki ölkə XVI əsrdən İspaniyanın müstəmləkəsi idi, müstəqillik elanından bir müddət sonra isə faktiki ABŞ-ın nəzarətinə düşdü.

### 196 il əvvəl...

**13 sentyabr 1826-cı ildə** İkinci Rusiya-İran müharibəsinin (1826-1828) gedişinə əhəmiyyətli təsir edən Gəncə döyüşü olub. İran qoşunlarının ağır məğlubiyyətə uğraması müharibənin taleyini faktiki olaraq həll edib. Bundan əvvəl (3 sentyabr) şahzadə Abbas Mirzənin qoşunları Şəmkir döyüşündə ruslara məğlub olmuşdu. Bundan sonra Rusiya qoşunlarının Naxçıvan və İrəvan xanlıqları üzərinə hücumları başlandı.

### 181 il əvvəl...

**15 sentyabr 1841-ci ildə** Salvador İspaniya müstəmləkəçiliyindən qurtulub. Hazırda El-Salvador Respublikası adlanır.

### 174 il əvvəl...

**15 sentyabr 1848-ci ildə** Mərkəzi Amerikanın daha bir ölkəsi – Kosta-Rika İspaniyanın nəzarətindən çıxaraq müstəqilliyini bəyan edib.

### 104 il əvvəl...



**15 sentyabr 1918-ci ildə** Nuru paşanın komandanlığı altında Azərbaycan-türk (Osmanlı) hərbi qüvvələrinin Qafqaz İslam Ordusu Bakını "Sentrokaspi diktaturası" və daşnak tör-töküntülərindən təmizləyib. 1918-ci ilin aprel-iyul aylarında Bakı Şaumyanın başçılıq etdiyi "Bakı Kommunası"nın, avqustun 1-dən isə ingilislərin dəstəyi ilə qurulan eser-menşevik-daşnak ("Sentrokaspi") hökumətinin nəzarətində idi. Qafqaz İslam Ordusu hissələrinin Bakıya hücumu öncəsi (14 sentyabr) ingilislər şəhəri tərk etmişdilər. Bakının azad olunması Azərbaycanın istiqlal tarixinin şanlı səhifəsi oldu. Milli hökumət Gəncədən Bakıya köçdü və Bakı Cümhuriyyətin paytaxtı elan edildi.

### 102 il əvvəl...



**14 sentyabr 1920-ci ildə** Cənubi Azərbaycan Milli Hökumətinin qurucusu Şeyx Məhəmməd Xiyabani Təbrizdə qətlə yetirilib. Xiyabaninin başçılığı ilə Təbriz üsyanı həmin ilin aprelində qələbə çalmış, iyunda Milli Hökumət qurulmuşdu. Sentyabrın 12-də irtica qüvvələrinin Təbrizə hücumu başlamışdı. Xiyabaninin qətli ilə Cənubi Azərbaycan türklərinin istiqlal mübarizəsinin daha bir səhifəsi sona çatdı.

### 62 il əvvəl...

**14 sentyabr 1960-cı ildə** Bağdadda keçirilən beynəlxalq konfransda Neft İxracatçısı Ölkələrin Təşkilatı – OPEK yaradılıb. Hazırda İraq, İran, Venesuela, Qətər, Liviya, Nigeriya, BƏƏ, Səudiyyə Ərəbistanı kimi ümumilikdə 13 neft ölkəsinin daxil olduğu təşkilat dünyada neft istehsalının yarışına nəzarət edir. Mənzil-qərargahı Vyana (Avstriya) şəhərindədir.

### 43 il əvvəl...

**14 sentyabr 1979-cu ildə** Əfqanıstanda hakimiyyət çevrilişi baş verib. Əfqanıstan Demokratik Respublikası İnqilabi Şurasının sədri Nur Məhəmməd Təraki baş nazir Hafizulla Əminin qüvvələri tərəfindən öldürülüb. Hakimiyyət H.Əminin əlinə keçib. Lakin onun hakimiyyəti də uzun çəkmədi və həmin ilin dekabrında sovet müdaxiləsi zamanı H.Əmin qətlə yetirildi.

### 31 il əvvəl...

**14 sentyabr 1991-ci ildə** Bakıda Azərbaycan Kommunist Partiyasının (KP) fövqəladə 33-cü qurultayı keçirilib. Qurultay Azərbaycan KP-nin özünü buraxması haqqında qərar qəbul edib. Partiyanın əmlakı respublika və yerli hakimiyyət orqanlarına verilib. "Avqust qiyamı"nın (19-21 avqust – Moskvada "QKÇP" dövlət çevrilişi cəhdi) iflasından sonra Sovet İttifaqında kommunist hakimiyyətinə faktiki olaraq son qoyulmuşdu. Beləcə, 1920-ci ilin yanvarında qurulan və 71 il hakim qüvvə olan Azərbaycan KP də tarixin arxivinə verildi.

### 28 il əvvəl...

**14 sentyabr 1994-cü ildə** Azərbaycan Respublikası ilə Qətər dövləti arasında diplomatik münasibətlər qurulub.

### 18 il əvvəl...

**15 sentyabr 2004-cü ildə** Azərbaycanda dərs ili ilk dəfə yeni tarixdə başlayıb. Ondan öncə dərs ili 1 sentyabrda başlayırdı. Prezident İlham Əliyevin müvafiq fərmanı (21 avqust 2004-cü il) ilə 15 sentyabr – "Bilik Günü" elan edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2587
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641